RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 171 (8487) CÜMƏ, 28 avqust 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevin qlobal təşəbbüsləri ölkəmizin geosiyasi çəkisini artırır

Cənubi Qafqaz regionunda geosiyasi və geoiqtisadi çəkisi gündən-günə artan, Avrasiyanın əlverişli nəqliyyat-logistika mərkəzinə çevrilərək qitənin enerji xəritəsini yenidən tərtib edən Azərbaycan reallaşdırdığı transmilli layihələrlə beynəlxalq birliyin ən etibarlı tərəfdaşı hesab olunur. Açıq dənizə çıxışı olmayan bir ölkənin qısa zamanda Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan dövlətə çevrilməsi həqiqətən də ölkəmiz adına böyük nailiyyətdir.

Bu uğurlar Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevin son 17 il ərzində həyata keçirdiyi tam müstəqil və düşünülmüş siyasəti fonunda əldə edilib.

## ABŞ-ın Azərbaycan Prezidentinin reallaşdırdığı beynəlxalq miqyaslı layihələrə tam dəstək verməsi bunun bariz təcəssümüdür

### Azərbaycan Avrasiyanın yeni enerji xəritəsini tərtib edir

Bu gün Azərbaycanın iştirakı olmadan bölgədə hər hansısa bir beynəlxalq layihənin reallaşması qeyri-mümkündür. Şərqdən qərb, şimaldan cənuba gedən ən qısa yollar Azərbaycandan keçdiyi üçün əksər beynəlxalq layihələr ölkəmizin razılığı əsasında gerçəkləşir.

Avrasiyanın mühüm nəqliyyat-tranzit qovşağı olan Azərbaycanın reallaşdırdığı və qoşulduğu beynəlxalq enerji layihələri ölkəmizə siyasi və iqtisadi dividendlər qazandırır. İndi Cənubi Qafqazda ən böyük investisiya layihələrinə sahib olan Azərbaycandır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, "Cənub qaz dəhlizi" kimi milyardlarla investisiya yatırılan layihələr ölkəmizin nəyə qadir olduğunu sübuta yetirir.

Prezident İlham Əliyevin söylədiyi kimi, Azərbaycan bu layihələrlə Avropanın enerji xəritəsini yenidən tərtib edir. "Cənub qaz dəhlizi"nin tam gücü ilə fəaliyyətə başlaması isə Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm aktora çevriləcək.

Ötən həftə "Qarabağ" yatağının dayaq blokunun dənizə yola salınma mərasimində cənab İlham Əliyev bir daha bu layihəni dəyərləndirərək dedi ki, indi əsas diqqət "Cənub qaz dəhlizi"nin başa çatmasına yönəldilib. Hazırda layihə uğurla icra edilir. Kəmərin dördüncü və sonuncu layihəsi olan TAP artıq başa çatmaq üzrədir. Bu işlər tamamlandıqdan sonra dövlətimizin təşəbbüsü və genişmiqyaslı beynəlxalq əməkdaşlıq nəticəsində 3500 kilometr uzunluğunda olan, bir-birinə bağlı üç qaz kəmərinin inşası tam yekunlaşacaq və Azərbaycan qazı artıq Avropa məkanına çatdırılacaq. Beləliklə, "Cənub qaz dəhlizi" tam istismara veriləcək.

Prezident bildirdi ki, "Cənub qaz dəhlizi" olmasaydı, heç bir xarici investor Azərbaycandakı yataqlara sərmayə yatırmaq istəməzdi. Gələcəkdə bu dəhlizlə təkcə "Şahdəniz"dən deyil, işlənməsi müxtəlif mərhələlərdə olan digər yataqlardan alınan qaz da nəql ediləcək. Bu da, əlbəttə ki, ixracın coğrafiyasını dəyişəcək. Azərbaycan bir çox ölkələrlə strateji tərəfdaşlığını daha da gücləndirəcək: "Biz bütün bu işləri görməklə Avrasiyanın yeni enerji xəritəsini tərtib edirik və Azərbaycan uzun müddət bundan sonra bir çox ölkələr üçün strateji tərəfdaş olaraq qalacaqdır".

### ABŞ-dan İlham Əliyevə tam dəstək

"Cənub qaz dəhlizi" layihəsinin reallaşdırılmasından sonra Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu əhəmiyyətli dərəcədə artacaq. Bu layihə ölkəmizin uzunmüddətli və dayanıqlı iqtisadi inkişafını təmin edəcək. Azərbaycanın təkcə enerji ixrac edən ölkə kimi deyil, həm də onu nəql edən və tranzit ölkə kimi əhəmiyyətini artıracaq.

Bir çox böyük dövlətlər də cənab İlham Əliyevin reallaşdırdığı layihələrə dəstək verməyə hazır olduqlarını bəyan ediblər. Onların içərisində Amerika Birləşmiş Ştatlarını xüsusi olaraq vurğulamaq olar. Bu günlərdə keçirilən "2020-ci ilin Regional Enerji Təhlükəsizliyinə dair Simpoziumu"nda çıxış edən ABŞ-ın ölkəmizdəki səfiri Örl Litzenberger qeyd edib ki, onun ölkəsi dünyada etibarlı enerji təchizatçısı rolunu inkişaf etdirən Azərbaycana öz dəstəyini verməyə hazırdır. Onun sözlərinə görə, enerji sektorunun inkişafı Azərbaycanın transformasiyasını təmin edib və dövlətin liderləri, siyasətçiləri mürəkkəb coğrafi və enerji mühitində fəaliyyət göstərərək hazırkı uğuru əldə ediblər:

Ardı 3-cü səh.

# MDBMİ-nin rektoru Anatoli Torkunovun 70 illik yubileyi münasibətilə "Rossiya-24" və "Rossiya-1" telekanallarında Prezident İlham Əliyevin müsahibəsi yayımlanıb



*Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) rektoru Anatoli Torkunovun 70 illik yubileyi münasibətilə Rusiyanın "Rossiya-24" və "Rossiya-1" televiziya kanallarında verilişlər yayımlanıb. Həmin verilişlərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunları olan dövlət başçılarının, ictimai-siyasi xadimlərin, diplomatların nüfuzlu təhsil müəssisəsinin rektoru ilə bağlı müsahibələri göstərilib. Bu verilişlərdə Azərbaycan Respublikasının Prezidenti, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu İlham Əliyevin də müsahibəsi yayımlanıb.* AZƏRTAC *müsahibəni təqdim edir.*

**Prezident İlham ƏLİYEV:** "O, MDBMİ-yə bizim ali məktəbin həyatının ən çətin dövrlərindən birində, qondarma yenidənqurmadan sonra başçılıq edib və onun rəhbərliyi ilə MDBMİ qısa müddətdə öz prestijini bərpa edib, dünyanın aparıcı ali məktəblərindən birinə çevrilib. Mən bilirəm ki, Anatoli Vasilyeviç bizim hamımızın MDBMİ məzunları olmağımıza görə fəxr edə bilməyimiz üçün çox qüvvə, sağlamlıq və diqqət sərf edib. Fikrimcə, MDBMİ-nin hər bir məzunu Anatoli Vasilyeviçin bizim ali məktəb üçün görmüş olduğu və bu gün də gördüyü işlərə görə ona minnətdar olmalıdır.

Məzunların Birinci Forumunu keçirdiyimiz vaxt mən demişdim ki, bu forumun Azərbaycanda keçirilməsi yəqin ki, təbiidir. Həm ölkənin adının, həm də soyadımın əlifba sırasına görə belə olmalı idi. Lakin mən onu da dedim ki, yəqin bu, həm də ona görədir ki, hələlik mən MDBMİ-nin yeganə prezident məzunuyam və arzu etdim ki, belə məzunlar çox olsun. Şadam ki, bu, belə də olur. Biz artıq iki nəfərik. Əminəm ki, bu, hələ başlanğıcdır. Biz çox olacağıq, ona görə ki, əminəm, bizim almamaterin məzunları, necə deyərlər, Anatoli Vasilyeviçin yetirmələri mənsub olduqları ölkələrin həyatında layiqli yer tutacaqlar, çünki MDBMİ praktiki olaraq bütün dünyanı birləşdirir. Əminəm ki, gələcəkdə MDBMİ-nin məzunları olan prezidentlərin sayı daha çox olacaq. Anatoli Vasilyeviçi bir daha ürəkdən təbrik edirəm, ona ən xoş arzularımı bildirirəm. Sükanı belə saxlayın!"

## Birinci vitse-prezident Mehriban ƏLİYEVA:

# "Qəlbləri hərarətləndirən duyğu və sözlərinizə görə çox sağ olun!"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva doğum günü ilə bağlı ona ünvanlanan təbriklərə görə təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində edilən paylaşımda deyilir:



*"Nə qədər saf, təsiredici sözlər, gözəl, xoş arzular! Bu qədər ürəkdən ifadə edilmiş hisslər! Ad günü təbriklərinə görə hamıya minnətdaram! Sevginizə, etimadınıza, hörmətinizə, diqqət və səmimiyyətinizə görə təşəkkür edirəm! Qəlbləri hərarətləndirən duyğu və sözlərinizə görə çox sağ olun! Sizin hər birinizə və doğmalarınıza möhkəm cansağlığı, xoş əhvali-ruhiyyə, tükənməz sevgi və xoşbəxtlik arzulayıram!"*

# Qanun qarşısında məsuliyyət və cavabdehlik ali iradənin tələbidir

## Hər bir şəxs Azərbaycan Prezidentinin mövqeyini bilməli və başa düşməlidir ki, qanun pozuntusuna görə mütləq şəkildə cavab verməli olacaqdır

Son günlər dünyada, xüsusilə də Avropa ölkələrində koronavirus yenidən inanılmaz sürətlə yayılmağa başlayıb. Buna görə də bir çox ölkələrdə yenidən bəzi məhdudiyyət tədbirləri sərtləşdirilib.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) rəhbərinin strateji təşəbbüslər üzrə köməkçisi Ranieri Querra söyləyib ki, tibbi qurumlar COVID-19-un ikinci dalğasının qarşısını almaq üçün hazırda bütün lazımi vasitələrə malikdir.

Mütəxəssis həmçinin asimptomatik hallarla bağlı xəbərdarlıq da edib: "Əminik ki, çox yüngül simptomlar da orta və uzunmüddətli dövrdə sağlamlığa zərər verə bilər. Soyuqdəymə, adi simptomlar diqqətsiz qalmamalıdır. Ciddi nəticələrin ola biləcəyi aydındır. Doğrudan da, az sayda gənc reanimasiya şöbələrində olur. Ancaq virus növbəti mərhələdə daha ağır fəsadlar verə bilər".

Beləliklə, koronavirusun payız aylarında digər respirator virus infeksiyaları ilə birlikdə problemlərə səbəb ola biləcəyi barədə fikirlər səslənməkdədir. Ümumdünya Səhiyyə Təşkilatının mütəxəssisləri bütün dünya ölkələrinə payız aylarına hazırlıqla bağlı tövsiyələr də verib. Çünki virusun gələcəkdə hansısa formada mutasiyaya uğraması ehtimalı, payız aylarında digər respirator virus infeksiyaları ilə birlikdə gedişatı problemlərə səbəb ola və səhiyyə müəssisələrinin üzərinə düşən yükü artıra bilər.

Ardı 4-cü səh.



# Azərbaycanın elektrik enerjisi sisteminin inkişafı bugünün və sabahın tələblərinə hesablanıb

## Yeni Günəş və külək stansiyaları sistemin gücünü daha da artıracaq

Azərbaycanda yeni generasiya güclərinin yaradılması ümumi inkişafın təzahürlərindən biridir. Ölkənin elektrik enerjisi sisteminin getdikcə müasirləşdirilməsi həyata keçirilən sosial-iqtisadi islahatlarla uzlaşır və davamlı şəkildə aparılır. Regionların sosial-iqtisadi inkişafına yönəldilən birinci Dövlət Proqramının qəbul edildiyi 2004-cü ildən bəri 30-dan çox elektrik stansiyasının və çoxsaylı yarımstansiyaların tikilməsi buna əyani sübutdur.

Dünyada hökm sürən koronavirus pandemiyası dövründə Azərbaycanda inşası və istifadəyə verilməsi təxirə salınmayan infrastruktur layihələri sırasında yeni enerji obyektlərinin olması da deyilənləri təsdiqləyir. Son aylar Prezident İlham Əliyevin bir neçə mühüm elektrik stansiya və yarımstansiyasının açılışında iştirak etməsi enerji sistemində görülən işlərin əhəmiyyətinə bir daha diqqət çəkir. Bunların sırasında dövlət başçısının bu günlərdə tikintisinin gedişi ilə tanış olduğu "Qobu" yarımstansiyası və təməlini qoyduğu "Qobu" stansiyası da var.

Tədbirdə Prezident ölkənin elektroenergetika sahəsinin sürətli inkişaf dövrü yaşadığını və bunun ümumi inkişafın əsas şərtlərindən olduğunu vurğulamışdır. Bununla yanaşı, dövlət başçısı son vaxtlar bərpaolunan enerji növlərinə böyük əhəmiyyət verildiyini qeyd etmişdir: "Bu istiqamətdə böyük planlarımız var. Energetiklər yaxşı bilirlər ki, bərpaolunan enerji növlərinin genişmiqyaslı inkişafı ənənəvi enerji növlərinin inkişafı ilə bilavasitə bağlıdır".

Ölkədə bərpaolunan enerji sahəsinin inkişafı üçün əlverişli şərait mövcuddur. Çünki bu enerjinin yaranması üçün əsas mənbə Günəş və küləkdir.

Ardı 6-cı səh.

# Ermənistan sosial-iqtisadi səfalət içərisindədir

## Paşinyan hakimiyyətinin talançılığı ölkəni daha böyük problemlərə sürükləyir

2020-ci il Ermənistan üçün sosial-iqtisadi, ictimai-siyasi müstəvidə vəziyyətin daha da ağırlaşması ilə xarakterizə olunmaqdadır. Əhalinin maddi rifah halının pisləşməsi həm də daxili və xarici siyasətdə müşahidə olunur. Çünki problemlərin çözümü üçün hakimiyyətin konkret siyasəti və proqramı yoxdur.

Vəziyyətin daha da pisləşəcəyini yerli media da təsdiq edir. Qeyd olunur ki, Ermənistan əhalisinin yaşayış şəraiti gələn il 2020-ci illə müqayisədə 15 faizdən çox pisləşəcək. Çünki 2021-ci il üçün nəzərdə tutulan dövlət büdcəsində təqaüd, müavinət və minimum əməkhaqqı artırılmayacaq.

Qeyd edilib ki, baş nazir Nikol Paşinyan ona olan ümidləri doğrultmayıb, ötən iki il ərzində ölkəni məhvə sürükləməklə, talançılıqla məşğul olub. "4rd.am" saytı yazır ki, Ermənistana investisiya yatırmaqda maraqlı olan şəxslər Paşinyandan qaçırlar. Ona görə ki, yalanlarla üzləşirlər: "Hazırkı hakimiyyət məcbur edir ki, biz yüksək səslə "Paşinyan hakimiyyətdə olduğu müddət ərzində heç kim aldanıb Ermənistana investisiya qoymasın" deyək. Hələ ki, adının çəkilməsini istəməyən iş adamı redaksiyamıza ünvanladığı məktubda yazır ki, rəhbərlik etdiyi holdinq kifayət qədər pul xərcləyib. Üç dəfə Ermənistana gəlib, biznes-plan hazırlayıb, tenderdə iştirak edib, onminlərlə avro xərcləyib. 2019-cu ilin ikinci yarısında tenderə bütün materialları versələr də, hələ cavab almayıblar. Vurğulayır ki, indi o, bizi inandırmağa çalışır ki, gələn dəfə daha yaxşı nəticələr əldə edəcəyik. Biz artıq inanmırıq.

Ardı 7-ci səh.

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti zati-aliləri xanım Mehriban Əliyevaya

Zati-aliləri.

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimizi çatdırırıq. Sizə möhkəm cansağlığı, enerji, xoşbəxtlik və firavanlıq arzulayır, bütün işlərinizdə uğurlar diləyirik.

Ulu Tanrı daim Sizi və ailənizi qorusun. Xalqınızın və bütün bəşəriyyətin mənafeyinə və inkişafına yönəlmiş nəcib məqsədləriniz və planlarınız həyata keçsin.

Bu xoş fürsətdən istifadə edərək, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin missiyasına davamlı dəstəyinizə və sadiqliyinizə görə Sizə və Zati-aliləri cənab Prezidentə minnətdarlığımızı bildiririk.

*Dərin hörmət və ehtiramla,*

***Vayra Vike-FREYBERQA,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,***
***1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti***

***İsmail SERAGELDİN,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,***
***Misirin İsgəndəriyyə Kitabxanasının direktoru***

***Boris TADİÇ,***
***2004-2012-ci illərdə Serbiyanın Prezidenti***

***Marianna VARDİNOYANNİS,***
***UNESCO-nun xoşməramlı səfiri***

***Rosen PLEVNELİYEV,***
***2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti***

***İvo YOSİPOVİÇ,***
***2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti***

***Petar STOYANOV,***
***1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti***

***Katerina YUŞŞENKO,***
***2005-2010-cu illərdə Ukraynanın birinci xanımı***

***Rövşən MURADOV,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Baş katibi***

***Filip VUYANOVİÇ,***
***2003-2018-ci illərdə Monteneqronun Prezidenti***

***Elnur ƏLİYEV,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin baş icraçı direktoru***

***Eka TKEŞELAŞVİLİ,***
***2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini***

❖ ❖ ❖

Çox hörmətli Mehriban Arif qızı.

Doğum gününüz münasibətilə "ARETİ" beynəlxalq şirkətlər qrupunun rəhbərliyi və kollektivi adından ən səmimi təbriklərimizi qəbul edin.

Ürəkdən arzu edirik ki, bu günün bayram ab-havası həmişə qəlbinizə hərarət versin, həyat Sizə ətrafınızdakı insanların sevgisini, xeyirxahlığını və qayğısını bəxş etsin, çətinliklərdən və problemlərdən qorusun, hər gününüz nurlu, xoş əhvallı, gözəl və sevindirici hadisələrlə dolu olsun.

Sizə, yaxınlarınıza və əzizlərinizə möhkəm cansağlığı, bütün işlərinizdə uğurlar, səadət və firavanlıq arzu edirəm. Qoy, Sizin bütün planlarınız uğurla həyata keçsin, arzularınız və ümidləriniz gerçəkləşsin!

*Hörmətlə,*

***İqor MAKAROV,***
***Moskvadakı "ARETİ" Beynəlxalq Şirkətlər Qrupunun prezidenti***

❖ ❖ ❖

Hörmətli xanım Mehriban Əliyeva.

BP şirkəti və onun bütün heyəti adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı, firavanlıq və Azərbaycan Respublikasının tərəqqisi naminə fəaliyyətinizdə uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Qəri COUNZ,***
***BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti***

❖ ❖ ❖

Hörmətli Mehriban xanım.

Doğum gününüz münasibətilə Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) Katibliyi adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Sizin Azərbaycanın çoxəsrlik milli-mədəni dəyərlərinin, multikultural ənənələrinin, tolerantlıq mühitinin qorunması və təşviqi, xalqın sosial-iqtisadi rifahı naminə yorulmaz fəaliyyətiniz, təhsilə, mədəniyyətə, idmana və gənc istedadlara dəstəyiniz dövlətçiliyin möhkəmləndirilməsi və ölkənin beynəlxalq imicinin yüksəldilməsinə misilsiz töhfələr verməkdədir. Bu gün beynəlxalq aləmdə və cəmiyyətdə yüksək nüfuzunuz, xalqın böyük rəğbətini qazanmağınız Sizin timsalınızda XXI əsr qadınlarımızın ictimai fəallığının parlaq örnəyidir.

Biz TÜRKPA olaraq tarixən xalqlarımızın xanımlara göstərdiyi yüksək hörmət və ehtiramı qeyd edərək, habelə ölkələrimizdə ailə dəyərlərimizin qorunmasına sadiqliyimizi bir daha ifadə edərək qadınlarımızın cəmiyyətin inkişafına göstərdiyi müstəsna xidmətlərə böyük önəm veririk.

Doğum gününüz münasibətilə Sizi bir daha təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, məsuliyyətli və şərəfli vəzifənizdə, bütün fəaliyyətlərinizdə uğurlar arzulayırıq.

*Dərin hörmət və ehtiramla,*

***Altınbek MAMAYUSUPOV,***
***Türkdilli Ölkələrin Parlament Assambleyasının Baş katibi***

❖ ❖ ❖

Çox hörmətli Mehriban Arif qızı.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Bu gözəl gündə Sizə ən dərin ehtiramımı, istedadlı dövlət xadimi, beynəlxalq xadim və məlahətli qadın kimi Sizə heyranlığımı bildirirəm.

Tükənməz enerji və əməksevərlik, ən doğru və səmərəli həlləri tapmaq istedadı, dürüstlük və yüksək peşəkarlıq - bu keyfiyyətlər Sizin inkişafınıza və yalnız irəli getməyinizə imkan verir. Siz praktiki təcrübəniz, fəal həyat mövqeyiniz, əzmkarlığınız, nikbinliyiniz, geniş erudisiyanız və biliyiniz, qeyri-adi təşkilatçılıq qabiliyyətiniz sayəsində Azərbaycanın inkişafına çox böyük töhfə vermisiniz, bütün xalqın sevgisini və hörmətini qazanmısınız.

Mənim üçün Siz həmişə səmimilik, xeyirxahlıq, müdriklik və gözəllik təcəssümü olmusunuz, bu gün də belədir və həmişə belə olacaq.

Əziz Mehriban Arif qızı, icazə verin, Sizə səmimi-qəlbdən cansağlığı, xoşbəxtlik, firavanlıq, xoş əhvali-ruhiyyə, aydın səma, çoxşaxəli fəaliyyətinizdə uğurlar arzulayım. Qoy, ömrünüzün hər günü dostlarınızın təbəssümü və yaxınlarınızın sevgisi ilə dolu olsun.

Sizə, ailənizə və işlərinizə həmişə heyranam. Sizə və yaxınlarınıza ən xoş arzularımı bildirirəm.

*Dərin hörmətlə,*

***Tatyana ANODİNA,***
***Dövlətlərarası Aviasiya Şurasının prezidenti,***
***Dövlətlərarası Aviasiya Komitəsinin sədri***

❖ ❖ ❖

Çox hörmətli Mehriban Arif qızı.

İcazə verin, doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edim.

Parlaq şəxsiyyət, qeyri-adi yaradıcılıq enerjisinə, iti zəkaya və intuisiyaya malik olan istedadlı siyasətçi, dünya səviyyəli ictimai xadim olaraq Sizin adınız doğma ölkənizə fədakarlıqla xidmətin rəmzi, fəaliyyətiniz isə dövlətçilik yolunda parlaq nailiyyətlərə nümunədir. Rusiya ilə qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində səyləriniz ən dərin hörmətə layiqdir.

Sizə səmimi-qəlbdən böyük xoşbəxtlik, cansağlığı və firavanlıq arzu edirəm. Qoy, Sizin evinizdə həmişə sülh və həmrəylik ab-havası duyulsun, bütün işləriniz uğurlu olsun.

*Dərin hörmətlə,*

***Dmitri SAVELYEV,***
***Rusiya Federasiyası Dövlət Dumasının deputatı,***
***Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri***

❖ ❖ ❖

Çox hörmətli Mehriban Arif qızı.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, uzun ömür, firavanlıq, bütün planlarınızın və təşəbbüslərinizin həyata keçməsini arzulayıram.

Siyasi savadınız və idarəçilik istedadınız Sizə xas olan nəcib keyfiyyətlərlə birlikdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsində fəaliyyətinizi Heydər Əliyev Fondunun rəhbəri kimi çoxşaxəli işinizlə uğurla əlaqələndirməyə imkan verir.

Siz haqlı olaraq nəinki doğma ölkənizdə, həm də onun hüdudlarından kənarda dərin hörmət qazanmısınız.

Bu xoş fürsətdən istifadə edib Sizə Həştərxan vilayəti ilə Azərbaycanın dostluq əlaqələrinin və işgüzar tərəfdaşlığının inkişafına göstərdiyiniz hərtərəfli dəstəyə, bu işə verdiyiniz qiymətli töhfəyə görə təşəkkürümü bildirirəm.

Əminəm ki, biz bundan sonra da birgə səylərimizlə qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq əlaqələrimizi davam etdirəcəyik.

Sizə ən xoş diləklərimi bildirir, xoşbəxtlik, uğurlar, tükənməz nikbinlik, Azərbaycan xalqına xidmət kimi nəcib işinizdə yeni nailiyyətlər arzulayıram.

*Hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

❖ ❖ ❖

Hörmətli Mehriban Arif qızı.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin yüksək dövləti vəzifədə fəaliyyətiniz vətəninizə, həmvətənlərinizə xidmət kimi nəcib işə məsuliyyətli münasibət nümunəsidir.

Zəngin peşəkar təcrübə, geniş erudisiya, şəksiz siyasətçi istedadı və gözəl insani keyfiyyətlər Sizin ən mürəkkəb məsələləri uğurla həll etməyinizə imkan verir.

Əminəm ki, qarşıda Sizi Azərbaycan Respublikasının və onun xalqının rifahı naminə çox uğurlar gözləyir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***Mixail QUTSERİYEV,***
***"Safmar" qrupu Səhmdar Cəmiyyətinin prezidenti,***
***Direktorlar Şurasının sədri***

❖ ❖ ❖

Hörmətli Mehriban Arif qızı.

İcazə verin, doğum gününüz münasibətilə Sizi İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti adından və şəxsən öz adımdan təbrik edim.

Siz görkəmli dövlət xadimi və ictimai xadim olaraq insanların rifahına yorulmadan qayğı göstərir, səhiyyənin, elmin və mədəniyyətin inkişafına çox böyük töhfə verirsiniz. Tibbi təhsil sahəsində beynəlxalq innovasiya layihələrinə, o cümlədən Seçenov Universitetinin Bakı filialının fəaliyyətinə verdiyiniz dəstəyə və göstərdiyiniz diqqətə görə Sizə təşəkkür edirik.

Sizə ən xoş diləklərimi bildirir, əmin-amanlıq, firavanlıq, yeni zəfərlər üçün tükənməz enerji arzu edirəm.

*Hörmətlə,*

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

❖ ❖ ❖

Hörmətli Mehriban Arif qızı.

Rusiyanın TASS informasiya agentliyinin kollektivi adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin böyük dövləti fəaliyyət təcrübəniz, fəal ictimai mövqeyiniz və təbiətən Sizə xas olan nəcib keyfiyyətlər Azərbaycan və Rusiya xalqları arasında mədəni və mənəvi əlaqələrin möhkəmləndirilməsinə sanballı töhfə verir.

Sizə xas olan müdrikliyi, intellekti tamamlayan böyük insani qüvvə və ləyaqət ən müxtəlif istiqamətlərdə sivilizasiyalararası dialoqun inkişafına imkan yaradır. Siz öz fəaliyyətinizdə həmişə əxlaq, şəfqət və mənəviyyat kimi sarsılmaz həqiqətlərə əsaslanır, milli ənənələrin qorunub saxlanmasına böyük diqqət yetirirsiniz.

Həyatınızın bu əlamətdar günündə Sizə və yaxınlarınıza tükənməz nikbinlik, harmoniya, sülh, xoş günlər və yeni nailiyyətlər arzu edirəm.

*Hörmətlə,*

***Sergey MİXAYLOV,***
***Rusiyanın TASS informasiya agentliyinin baş direktoru***

# Avropa İttifaqının "EU Politics" portalında Birinci vitse-prezident Mehriban Əliyeva barədə məqalə dərc olunub

Avropa İttifaqının "EU Politics" portalında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva barədə məqalə dərc olunub.




Portal AZƏRTAC-ın "Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır" sərlövhəli məqaləsinə istinadla Mehriban Əliyevanın Azərbaycanın inkişafı istiqamətində mühüm işlər görməsindən, humanist, xeyirxah təşəbbüslər irəli sürməsindən, onun rəhbərliyi ilə çoxsaylı layihələrin reallaşdırılmasından bəhs edir. Vurğulanır ki, amalı xeyirxahlıq və kömək etmək olan birinci xanımın çoxşaxəli fəaliyyəti cəmiyyətin həyatında müsbət dəyişikliklərin baş verməsinə yönəlib. Azərbaycan tarixini, mədəni irsini, həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq istiqamətində yorulmaz fəaliyyət göstərən Mehriban Əliyevanın fəaliyyətində, eyni zamanda, sivil dünyada sülh, sabitlik, sivilizasiyalararası dialoq, multikulturalizm kimi bəşəri ideyaların reallaşdırılmasını, bu sahələrdə səylərin birləşdirilməsini xüsusi qeyd etmək olar. Onun yüksək təşkilatçılıq bacarığı sayəsində Azərbaycanın nüfuzlu tədbirlərə uğurla evsahibliyi etməsi ölkənin reallıqlarının təbliği baxımından əhəmiyyət kəsb edir.

Yazıda Mehriban Əliyevanın Birinci vitse-prezident kimi gördüyü işlərdən də bəhs olunur, onun bu vəzifədə fəaliyyətinin ilk tədbirlərini yenə də humanist missiyaya köklədiyi vurğulanır. Birinci vitse-prezidentin çoxşaxəli və xoşməramlı fəaliyyətinin həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək qiymətləndirildiyi diqqətə çatdırılır.

# Rumıniya mətbuatı Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti barədə məqalələr yayıb

Rumıniyanın aparıcı mətbuat orqanları, o cümlədən "AmosNews" xəbər agentliyi, "Ultima Ora" (Son saat) qəzeti, "News24hours" onlayn nəşri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyəti barədə məqalələr yayıb.










AZƏRTAC-ın "Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır" sərlövhəli məqaləsi əsasında hazırlanan yazılarda qeyd olunur ki, müasir müstəqil Azərbaycanın inkişafına xidmət etmək, sosial məsələlərin həlli, şəfqət və mənəviyyat ideyalarına sədaqət, yardıma möhtac olanların dadına yetmək Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın həyat fəlsəfəsinin əsasını təşkil edir. Vurğulanır ki, Mehriban Əliyeva Prezident İlham Əliyevlə çiyin-çiyinə Azərbaycanın dinamik inkişafına böyük töhfə verir.

Yazılarda Mehriban Əliyevanın Heydər Əliyev Fondunun prezidenti kimi səmərəli fəaliyyətindən, beynəlxalq humanitar təşkilatlar olan UNESCO və ICESCO-nun xoşməramlı səfiri olaraq dünya mədəni irsinin qorunması, Azərbaycanın beynəlxalq miqyasda tanıdılması işinə verdiyi misilsiz töhfələrdən bəhs edilir. Vurğulanır ki, Birinci vitse-prezident sosial məsələlərə, əhalinin aztəminatlı təbəqəsinin problemlərinin həllinə xüsusi diqqət göstərir.

Məqalələrdə həmçinin Birinci vitse-prezidentin rəhbərliyi ilə COVID-19 pandemiyasına qarşı mübarizə tədbirlərindən, Heydər Əliyev Fondunun dəstəyi ilə modul tipli xəstəxanaların istifadəyə verilməsindən bəhs olunur. Bundan başqa, Mehriban Əliyevanın çoxşaxəli və xoşməramlı fəaliyyətinin həm Azərbaycanda, həm də dünya miqyasında yüksək qiymətləndirildiyi, onun bir çox beynəlxalq mükafatlara layiq görüldüyü vurğulanır.

# "China Daily": "Mehriban Əliyevanın yorulmaz fəaliyyəti Azərbaycan xalqının dərin hörmət və məhəbbətini qazanıb"

Çində və xaricdə çoxsaylı oxucusu olan ingilisdilli "China Daily" qəzeti "Mehriban Əliyevanın yorulmaz fəaliyyəti Azərbaycan xalqının dərin hörmət və məhəbbətini qazanıb" sərlövhəli məqalə yayıb.




Məqalə AZƏRTAC-ın "Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır" sərlövhəli məqaləsi əsasında hazırlanıb.

Ümumilikdə 100 milyondan çox çap, onlayn, sosial şəbəkələr, mobil cihazlar üçün tətbiqlər üzrə abunəçisi olan "China Daily"də çıxan məqalədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətindən, xeyirxah əməllərindən, ölkəsinin, onun mədəniyyətinin dünyada tanıdılması istiqamətindəki işlərindən söz açılıb.

Bildirilib ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Prezident İlham Əliyevlə çiyin-çiyinə ölkənin tərəqqisi üçün səylə çalışır. Azərbaycanı beynəlxalq aləmdə sidq-ürəkdən təbliğ edən, siyasəti mərhəmət və şəfqət kimi bəşəri dəyərlərlə zənginləşdirən, hər bir sahədə xoş məramı ilə fərqlənən Mehriban Əliyeva vətəninin tərəqqisinə xidmət edir, ölkəsinin mədəniyyətinin, təhsilinin, səhiyyəsinin, idmanının inkişafına çalışır, sabahının qayğısına qalır.

Məqalədə Mehriban Əliyevanın Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri kimi dünya mədəni irsinin qorunması, sivilizasiyalararası dialoqun təşviqi, Azərbaycanın beynəlxalq miqyasda tanıdılması işinə verdiyi misilsiz töhfələrdən bəhs edilib.

"China Daily" yazır ki, 2017-ci il fevralın 21-də Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi onun zəngin fəaliyyətinin və təşkilatçılıq bacarığının məntiqi nəticəsi kimi dəyərləndirilir. Ötən müddətdə bu yüksək və məsul vəzifədə gördüyü işlərlə Prezidentin və xalqın etimadını layiqincə doğruldur.

Bildirilib ki, Mehriban Əliyevanın fəaliyyətində əhalinin həssas təbəqələrinin, o cümlədən məcburi köçkünlərin problemlərinin həlli xüsusi yer tutur. O, Birinci vitse-prezident kimi ilk müşavirəsini qaçqın və məcburi köçkün ailələrinə həsr edib. Bundan başqa, o, Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə yaralanan hərbçilərə qayğı göstərir, Mehriban Əliyevanın təşəbbüsü ilə ölkədə təhsil, səhiyyə, mədəniyyət sahələrində iri-miqyaslı layihələr icra edilir.

Məqalədə, həmçinin Mehriban Əliyevanın rəhbərliyi ilə COVID-19 pandemiyasına qarşı mübarizə tədbirləri, Heydər Əliyev Fondunun dəstəyi ilə modul tipli xəstəxanaların istifadəyə verilməsindən də bəhs olunub.

"China Daily" oxucularına Mehriban Əliyevanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan mədəniyyətinin, dövlətçilik ənənələrinin, tarixinin dünyada təbliği sahəsində davamlı, məqsədyönlü işi barədə də məlumat verib. Bundan başqa, Azərbaycanın Birinci vitse-prezidentinin idmanın inkişafı sahəsində gördüyü işlərdən də bəhs edilib, onun çoxlu beynəlxalq mükafatlara layiq görüldüyü vurğulanıb.

Qeyd edək ki, "China Daily" qəzeti və AZƏRTAC arasında sıx əməkdaşlıq əlaqələri mövcuddur. Bu əməkdaşlığın əsası 2018-ci ildə Şanxay Əməkdaşlıq Təşkilatının birinci Media Sammiti zamanı qoyulub və tərəflər əlaqələrin genişləndirilməsinə dair razılığa gəliblər. AZƏRTAC-ın materiallarını öz kanalları ilə mütəmadi yayan qəzet bir müddət əvvəl "Siyasətdə varislik: Azərbaycanın taleyini və simasını dəyişən 26 il", "İlham Əliyev. Əli xalqın nəbzində olan islahatçı Prezident" sərlövhəli məqalələri də öz internet səhifəsində yerləşdirib.

Qəzet ilə sıx əməkdaşlığına, iki ölkə arasında informasiya mübadiləsindəki fəallığına, qəzetin həyata keçirdiyi layihələrdə fəal iştirakına görə AZƏRTAC-a "China Daily" tərəfindən "Fəxri beynəlxalq media tərəfdaşı-2019" mükafatı təqdim olunub.

# Parlamentin görüş və iclas salonlarına adlar verilib



Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova parlamentin inzibati binasında mövcud olan görüş otaqlarının və iclas salonlarının adlandırılması haqqında sərəncam imzalayıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, sərəncama əsasən, xalqımızın və dövlətimizin tarixi-mədəni irsinin yaşadılması, nəsildən-nəslə ötürülməsi işinə töhfə vermək məqsədilə parlamentin inzibati binasındakı görüş otaqlarına və iclas salonlarına aşağıdakı adlar verilib. İclas salonları müvafiq olaraq “İstiqlal”, “Respublika”, “Qarabağ”, “Xəzər” və “Xarı bülbül bağı”, görüş otaqları isə “İpək yolu” və “Odlar yurdu” adlandırılıb.

Bununla yanaşı, bildirmək istəyirik ki, Milli Məclisin inzibati binasında deputatların fəaliyyəti üçün müasir texnologiyaların nailiyyətlərindən istifadə etməyə imkan verən plenar iclas zalı və müstəqil Azərbaycanın memarı olan Ümummilli Liderin adını daşıyan, müxtəlif eksponatlara və nəşrlərə malik Heydər Əliyev xatirə zalı fəaliyyət göstərir.

# Azərbaycan və Rusiya nəzarət-buraxılış məntəqələrindən keçid prosedurunun təkmilləşdirilməsi üzrə əlavə tədbirlər üzərində işləyirlər

“Hazırda Azərbaycan və Rusiya tərəfləri nəzarət-buraxılış məntəqələrindən keçid prosedurunun təkmilləşdirilməsi üzrə əlavə tədbirlər üzərində işləyirlər”.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov bu məlumatı Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov ilə danışıqların yekunlarına həsr edilmiş mətbuat konfransında “Şimal-Cənub” tranzit dəhlizinin inkişafı üzrə üçtərəfli qarşılıqlı fəaliyyət çərçivəsində Rusiya-Azərbaycan əməkdaşlığı barədə sualı cavablandırarkən açıqlayıb.

C.Bayramov deyib: “Rusiya, Azərbaycan və İran arasında ciddi əməkdaşlıqdan söhbət gedir. Son illər bu sahədə böyük iş aparılıb və bu işin nəticələri göz qabağındadır. Nəticə ondan ibarətdir ki, pandemiya ilə bağlı məhdudlaşdırma tədbirlərinə baxmayaraq, Şimal-Cənub və Şərq-Qərb marşrutları üzrə Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçməklə daşımaların həcmi artıb”.

Nazir daha sonra deyib: “Azərbaycan və Rusiya tərəfləri nəzarət-buraxılış məntəqələrindən keçid prosedurunun təkmilləşdirilməsi üzrə əlavə tədbirlər üzərində işləyirlər. Azərbaycan yeni Bakı-İran sərhədi magistralının tikintisini başa çatdırıb. Bakı-Rusiya sərhədi magistralının tikintisi də yaxın aylar ərzində başa çatdırılacaq. Bu baxımdan vəziyyət yetərincə yaxışdır”.

# *Rusiya XİN rəhbəri:* “Şimal-Cənub” layihəsinin reallaşdırılması Avrasiyanın bu hissəsində böyük bir regionun xeyrinə olacaq”



“Bizim müvafiq idarələr arasında reallaşdırılan bütün planları, o cümlədən bizimlə bərabər İranın da iştirak etdiyi “Şimal-Cənub” tranzit dəhlizini və üçtərəfli formatda tərəfdaşımız Türkiyə olan “Şərq-Qərb” layihəsini mən yalnız fəal dəstəkləyə bilərəm”.

AZƏRTAC xəbər verir ki, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov bu sözləri Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovla danışıqlar başa çatandan sonra keçirilən mətbuat konfransında söyləyib.

S.Lavrov daha sonra deyib: “Yuxarıda adıçəkilən beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılmasında irəliləməyimizə kömək edəcək konkret məsələlərdən Rəşt-Astara yolunun İran hissəsində tikintini başa çatdırmağın zəruri olduğunu qeyd etdim. Bu gün biz həm də Astara-Bakı-Həştərxan marşrutunun tamamlanmasında ölkələrimizin maraqlı olmasını vurğuladıq. Bu marşrut da “Şimal-Cənub” layihəsinə daxildir. Bundan əlavə, Rusiya-Azərbaycan-İran enerji körpüsü olduqca aktual və zəruri layihədir. Əlbəttə, İran İslam Respublikasına qarşı qeyri-legitim birtərəfli sanksiyalar olmasaydı, bütün bu planların həyata keçirilməsi daha sadə, daha effektiv və daha faydalı olardı, lakin mövcud vəziyyətdə də biz bütün planlarımızı reallaşdıracağıq və bu, Avrasiyanın bu hissəsində böyük bir regionun xeyrinə olacaq”.

# Azərbaycanın Xarici İşlər naziri Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş səfiri ilə görüşüb

Avqustun 27-də Xarici İşlər naziri Ceyhun Bayramov Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş səfiri Nikolaos Piperiqosun etimadnaməsini qəbul edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan ilə Yunanıstan arasında mövcud əməkdaşlıq münasibətlərinə dair fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov səfir Nikolaos Piperiqosu təyinatı münasibətilə təbrik edərək, onun iki ölkə arasında əlaqələrin daha da inkişafına töhfə verəcəyinə inandığını bildirib.

Öz növbəsində Nikolaos Piperiqos ölkəmizə səfir təyin olunmasından məmnun olduğunu qeyd edib. O, Yunanıstan Xarici İşlər nazirinin təbriklərini nazir Ceyhun Bayramovun diqqətinə çatdırıb və diplomatik fəaliyyəti dövründə iki ölkə arasındakı əməkdaşlığın genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

Görüşdə habelə iki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# *Sergey LAVROV:* “Biz prezidentlərimizin istiqamətləndirdiyi qarşılıqlı fəaliyyətimizin geniş əhatəli xarakterini vurğuladıq”

*“Biz prezidentlərimizin istiqamətləndirdiyi qarşılıqlı fəaliyyətimizin geniş əhatəli xarakterini vurğuladıq. Onların etimada əsaslanan müntəzəm dialoqunun əhəmiyyətini qiymətləndirmək çətindir. Bu il də belə ünsiyyət müntəzəm davam edir. Ali səviyyədə əldə edilmiş razılaşmaların yerinə yetirilməsinin gedişi bizi qane edir. Bu sözlər iqtisadi və humanitar sahələrə, təhlükəsizlik şuraları, digər idarə və nazirliklər xətti ilə iki ölkənin parlamentləri arasında əlaqələrə aiddir”.*

AZƏRTAC xəbər verir ki, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov bu sözləri azərbaycanlı həmkarı ilə danışıqlar başa çatandan sonra keçirilən mətbuat konfransında söyləyib.

Rusiyalı nazir deyib: “Rusiya Azərbaycanın aparıcı xarici iqtisadi tərəfdaşlarından biridir. Ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi 3 milyard dolları aşıb. Biz qeyd etdik ki, 2020-ci ilin ilk aylarında əmtəə dövriyyəsi nəinki azalmayıb, hətta bir qədər artıb”.

S.Lavrov qeyd edib ki, bu göstəricilərin əldə edilməsində sərhədyanı mübadilə sanballı rol oynayır. Rusiyanın onlarca regionu Azərbaycan ilə əməkdaşlıq edir. Regionlararası forumlar keçirilməsi yaxşı bir ənənəyə çevrilib. Növbəti belə forum bu ilin sonuna qədər Azərbaycanda keçiriləcək.

RF XİN rəhbəri vurğulayıb ki, mədəni-humanitar əlaqələr xalqlarımız arasında etimadı və qarşılıqlı anlaşmanı möhkəmlədən ən mühüm amildir. Ötən il Azərbaycanda Rusiya Günləri uğurla keçib. Bu il Rusiyada Azərbaycan Mədəniyyəti Günlərinin keçiriləcəyi tarix dəqiqləşdirilir. RF XİN rəhbəri deyib: “Azərbaycan rəhbərliyinin rus dilinə qayğıkeş münasibətini çox yüksək qiymətləndiririk. Bizdə təhsil sahəsində çox yaxşı potensial var. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakıdakı filialı artıq 11 ildir fəaliyyət göstərir. 2015-ci ildən isə Bakıda İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialı açılıb”.

S.Lavrovun sözlərinə görə, tərəflər Xəzər trekində əməkdaşlığın inkişafını məmnunluqla qeyd ediblər. Gələn il Rusiyada keçirilməsi nəzərdə tutulan Xəzəryanı Dövlətlərin İkinci İqtisadi Forumuna hazırlıq məsələləri müzakirə edilib.

Nazir qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması mövzusuna ətraflı toxunulub. S.Lavrov sonda deyib: “Biz, ümumiyyətlə, nizamlanmanın davam etdirilməsi əzmindəyik. Bu mənada sabit və davamlı danışıqlar prosesini qaydaya salmaq üçün zəruri şərait təmin edilməlidir. Danışıqlar sadəcə danışıqlar xatirinə deyil, Qarabağ məsələsinin dinc yolla həllinə nail olmağa yönəldilməlidir. Biz bu cür şərait yaradılmasına hər vasitə ilə kömək edəcəyik.

Ümumiyyətlə, danışıqlarımızdan çox razı qaldım. Ümidvaram ki, biz bu cür ünsiyyəti davam etdirəcəyik”.

# Prezidentin köməkçisi şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərlə işləyən QHT-lərlə görüşüb







Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev avqustun 27-də şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərlə işləyən 74 QHT-nin rəhbəri ilə onlayn görüş keçirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Katibliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Şuranın sədri Azay Quliyev tədbiri giriş sözü ilə açaraq bildirib ki, Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi QHT-lərə dövlət dəstəyi konsepsiyasında şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərlə işləyən QHT-lərə dövlət dəstəyi xüsusi prioritet təşkil edir. Şura fəaliyyəti dövründə bu kateqoriyadan olan təşkilatların layihələrinə davamlı olaraq maliyyə ayırıb və onların bu sahədə olan təşəbbüslərini daim dəstəkləyib: “Bu gün Prezidentin köməkçisi Hikmət Hacıyevin bu istiqamətdə çalışan QHT-lərlə ayrıca görüşü dövlətin bu sahəyə nə qədər böyük əhəmiyyət verdiyini bir daha sübut edir”.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev əvvəlcə ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda canını fəda edən bütün şəhidlərimizi yad edib və onlara Allahdan rəhmət diləyib. Hikmət Hacıyev şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərin qayğılarının hər zaman Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət mərkəzində olduğunu və bu istiqamətdə çox böyük işlər görüldüyünü bildirib. Prezident İlham Əliyevin doğum günlərini şəhid ailələri ilə keçirdiyini deyən Hikmət Hacıyev bunun Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan şəxslərin ruhuna və onların ailə üzvlərinə göstərilən yüksək ehtiramın nümunəsi olduğunu qeyd edərək deyib: “Cənab İlham Əliyev 2018-ci ildə yenidən Prezident seçildikdən sonra ilk fərmanı şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı olub. Bu şəhidlərə verilən yüksək qiymət idi. Bu fərman əsasında 10 minə yaxın şəhid ailəsinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulub. 8018 şəhid ailəsi və müharibədə əlil olmuş şəxs mənzillərlə təmin edilib, onlara 6900 avtomobil verilib. Dövlət cari ildə 1500 şəhid ailəsi və müharibədə əlil olmuş şəxsi mənzillərlə təmin edib və ediləcək. Məcburi köçkünlərin məişət problemlərinin həllinə gəldikdə isə onu vurğulamaq istəyirəm ki, bu il ümumilikdə 7 mindən çox məcburi köçkün ailəsi mənzillərlə təmin ediləcək”.

Hikmət Hacıyev bildirib ki, Böyük Vətən müharibəsi və Əfqanıstan müharibəsi veteranlarının mənzil və avtomobillərlə təmin edilməsi, sanatoriyalara göndərilməsi, onların müalicə olunması və s. kimi məsələlər də daim ölkə başçısının diqqət mərkəzindədir.

Prezidentin köməkçisi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın qeyd olunan kateqoriyadan olan insanların həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində böyük işlər gördüyünü vurğulayıb. Aprel döyüşləri şəhidlərinin ailələrinə, həmin döyüşlərdə sağlamlığını itirmiş hərbçilərimizin, Tovuz döyüşlərində şəhid olan hərbçilərin ailə üzvlərinin bütün qayğıları da Mehriban Əliyevanın tapşırığına əsasən fondun nəzarətinə götürülüb.

Hikmət Hacıyev şəhid ailələrinin, Qarabağ qazilərinin, müharibə veteranlarının, əlilliyi olan şəxslərin, qaçqın və məcburi köçkünlərin hər zaman milli maraqlarımızı qətiyyətlə müdafiə etdiklərini və cənab Prezidentin həyata keçirdiyi siyasəti daim dəstəklədiklərini bildirərək onlara göstərdikləri dövlətçilik mövqeyinə görə təşəkkür edib.

Prezidentin köməkçisi bugünkü görüşün xüsusi əhəmiyyətinə toxunaraq QHT rəhbərlərinin fəaliyyət göstərdiyi istiqamətlər üzrə fikir və təklifləri ilə yaxından tanış olmaq istədiyini bildirib.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini Cəlil Xəlilov, “Ehtiyatda Olan Zabitlərin Konfederasiyası” İctimai Birliyinin sədri Məmmədhüseyn Sarıyev, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyev, “Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə” İctimai Birliyinin sədri Emin Həsənli, “Qarabağ Azadlıq Təşkilatı” İctimai Birliyinin sədri Akif Nağı, Azərbaycan Qaçqınlar Cəmiyyəti İctimai Birliyinin sədri Əziz Ələkbərov, “Zəfər” şəhid ailələrinə dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə, “Vətənpərvərliyin Təbliğinə Dəstək” İctimai Birliyinin sədri Şəmistan Əlizamanlı, Əlil Təşkilatları İttifaqının sədri Davud Rəhimli, Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası İctimai Birliyinin sədri Rey Kərimoğlu, “Əsgər Ailələrinə Dəstək” İctimai Birliyinin sədri Mətanət Cəfərova, “Azərbaycan Gözdən Əlillər Cəmiyyəti” İctimai Birliyinin sədri Səmyar Abdullayev, Azərbaycan Çernobıl Əlillər İttifaqının sədri Mirhəsən Həsənov, Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov, Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinin sədri Məhəmməd Vəliyev, “Xankəndi” məcburi köçkünlərə dəstək İctimai Birliyinin sədri Xatirə Vəliyeva, Azərbaycan Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatının sədri Vüqar Qədirov, “Dünya Azərbaycanlılarının Vətənpərvərlər” İctimai Birliyinin sədri Nəsimi Həsənov, “Qürur” şəhid ailələri xeyriyyə İctimai Birliyinin sədri Naibə Behbudova, “Müharibə Veteranı Qadınlarına Sosial Yardım” İctimai Birliyinin sədri Radə Abbas, “20 Yanvar” İctimai Birliyinin sədri Sultan Əzimzadə, “İstedadlı Əlillər” İctimai Birliyinin sədri Cavad Qasımov, “20 Yanvar Şəhid Ailələrinin Hüquqlarının Təmin olunması” İctimai Birliyinin sədri Maral Zamanova, “Şəhid Ailələrinə Sosial Dəstək” İctimai Birliyinin sədri Almaz Zeynalova, Azərbaycan Respublikası Milli Qəhrəmanlarını Tanıtma İctimai Birliyinin sədri Elşən Uluxanlı, Azərbaycan Vətən Müharibəsi Əlilləri Birliyinin sədri Firudin Məmmədov, “Vətən Fədailərinin Hüquqlarının Müdafiəsi” İctimai Birliyinin sədri Dadaş Quliyev və “Veteran Tankçılar” İctimai Birliyinin sədri Hacıbala Əzimov çıxış edərək onlara göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər. QHT rəhbərləri fəaliyyət göstərdikləri sahə ilə bağlı fikir və təkliflərini səsləndirərək Hikmət Hacıyevin iştirakı ilə keçirilən QHT - hökumət dialoqunu yüksək qiymətləndiriblər.

Tədbirə yekun vuran Prezidentin köməkçisi Hikmət Hacıyev görüşdə fəal iştirak edən və müxtəlif təkliflər səsləndirən QHT rəhbərlərinə təşəkkür edərək bildirib ki, onların fikir və təklifləri diqqətlə araşdırılacaq və imkan daxilində nəzərə alınacaq. Bununla yanaşı, Prezidentin köməkçisi onu da xüsusi olaraq vurğuladı ki, şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərlə işləyən QHT-lər ölkəmizin milli maraqlarının qorunmasında, vətəndaş həmrəyliyinin və hərbi vətənpərvərliyin gücləndirilməsində, cəmiyyətin ümummilli maraqlar ətrafında birləşməsində, ölkəmizə qarşı yönələn təhdid və təxribatların qarşısının alınmasında və Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə effektiv şəkildə çatdırılmasında daha fəal olmalı və bu işdə bütün potensiallarını səfərbər etməlidirlər.

Məlumat üçün qeyd edək ki, Prezidentin köməkçisi Hikmət Hacıyevin QHT-lərlə görüşü davam edəcək.

# İlham Əliyevin qlobal təşəbbüsləri ölkəmizin geosiyasi çəkisini artırır

*Əvvəli 1-ci səh.*

“Bizim çatdırmaq istədiyimiz ismarıc aydın və davamlıdır: Azərbaycanın Avropa və qlobal enerji təhlükəsizliyinə, sabitliyinə verdiyi töhfə tərəfimizdən yüksək qiymətləndirilən müsbət öhdəliyin nümunəsidir”.

Səfir həmçinin vurğulayıb ki, “Cənub qaz dəhlizi” layihəsinin bir sıra dövlətlərin suverenliyi və müstəqilliyi üçün strateji mahiyyəti var, habelə layihə müttəfiq və tərəfdaş dövlətlərin enerji təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir: “Bu layihə Rusiyanın xaricində hasil olunan qazın Şərqdən Qərbə ixracını reallaşdıran ilk layihədir. Layihənin tamamlanması Azərbaycanın həm enerji təchizatçısı, həm də Avropada enerji təhlükəsizliyinin təminatçısı kimi irəliləməsinə imkan yaradacaq. Layihənin tamamlanması demək olar ki, başa çatır və biz artıq bu layihənin genişləndirilməsinə, yəni Xəzər hövzəsinin digər qaz ehtiyatlarının ixracına yol açan imkanlar barədə düşünməliyik”.

Səfir həmçinin Birləşmiş Ştatların Azərbaycanın Sovet İttifaqından ayrılandan sonra əldə etdiyi müstəqilliyini, sabitliyini və rifahını tam dəstəklədiyini də söyləyərək iki ölkə arasındakı davamlı təhlükəsizlik təşəbbüslərindən söz açıb. Məhz bu təhlükəsizlik təşəbbüsləri sayəsində sərhəd təhlükəsizliyi, Xəzər dənizində mühüm infrastrukturun mühafizəsi, kibertəhlükəsizlik və transmilli terrorçuluğa qarşı mübarizə sahələrində gücləndirici fəaliyyətlər həyata keçirilir.

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp cənab İlham Əliyevə ünvanladığı məktubda da “Cənub qaz dəhlizi”nin inanılmaz nailiyyət olduğunu və bunun Avropanın enerji təhlükəsizliyini təmin edəcəyini vurğulayaraq layihəyə birmənalı dəstəyini ifadə etmişdi.

## İlin sonunda “Cənub qaz dəhlizi”nin çəkilişi tamamlana bilər

“Cənub qaz dəhlizi” Avropa və Xəzər regionu arasında enerji və nəqliyyat əlaqəsi yaradacaq yeni İpək yolu rolunu oynayan vasitə kimi qəbul edilir. Avropanın enerji təminatında isə Azərbaycanın xüsusi çəkisi və strateji əhəmiyyəti getdikcə artır. Təkcə Azərbaycanın və regionun deyil, bütün Avrasiya məkanının enerji təhlükəsizliyində mühüm rol oynayacaq “Cənub qaz dəhlizi”nin çəkilişinin bu ilin sonunadək tamamlanması nəzərdə tutulur. Belə ki, dəhlizin sonuncu - dördüncü seqmenti olan Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) inşası yekun mərhələyə qədəm qoyub.

Layihənin üç hissəsi isə artıq uğurla fəaliyyət göstərir. 3500 kilometrlik “Cənub qaz dəhlizi” Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz” yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan mavi yanacağı ölkəmizin və Gürcüstanın ərazisindən keçməklə Türkiyəyə, oradan da Avropaya çatdırmaq üçün inşa edilib. “Şahdəniz-2”dən əldə olunacaq illik 16 milyard kubmetr qazın 6 milyard kubmetri Türkiyə, 10 milyard kubmetri isə Avropa ölkələri üçün nəzərdə tutulub.

Əminliklə söyləyə bilərik ki, “Cənub qaz dəhlizi” Azərbaycana böyük dividendlər qazandıracaq və ölkəmizin dünya birliyində çəkisini daha da artıracaq. Prezidentin söylədiyi kimi, “Cənub qaz dəhlizi” Azərbaycanın qarşısına qoyduğu bütün hədəflərə çatdığını bir daha təsdiqləyir və demək olar ki, kəmərin tam gücü ilə işə düşməsindən sonra ölkəmizin neft-qaz sənayesinin inkişafında yeni dövr başlayacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Ermənistana məxsus növbəti taktiki pilotsuz uçuş aparatı məhv edilib

Avqustun 27-də saat 09:45 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə cəbhənin Füzuli rayonu istiqamətindəki mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmənin növbəti PUA-sı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən dərhal aşkar olunaraq məhv edilib.

# Naxçıvanda keçirilən təlimlərdə iki qardaş ölkənin bölmə komandirləri arasında təcrübə mübadiləsi aparılır





Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimi çərçivəsində iki qardaş ölkənin ordu bölmələrinin komandirləri arasında təcrübə mübadiləsi aparılır.

Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təlimdə komandir heyətinin yaranmış taktiki şəraitə uyğun qısa müddətdə qərar qəbul edib yuxarı qərargaha məruzə etməsi, tabelikdə olanlara çatdırması və döyüşün təşkili üzrə bacarıq və vərdişlərinin təkmilləşdirilməsi məqsədi ilə Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində kompüterlər üzərində keçirilən məşqlər davam edir.

Məşqlər zamanı komandirlərin ərazinin relyefindən faydalanaraq bölmələrin gizli hərəkətini təmin etməsi, məhdud şəraitdə atəşi və bölmələri idarə etməsi məsələləri işlənilir.

**Biz birlikdə güclüyük!**

# Azərbaycanda təhsil müəssisələri sentyabrın 15-də mərhələli şəkildə açılacaq

Dünyada 63 ölkədə məktəblər artıq açılıb, 55 ölkədə məktəblərin açılacağı elan olunub, 39 ölkə isə məktəblərin açılması ilə bağlı hələ qərar qəbul etməyib. AZƏRTAC xəbər verir ki, bunu Təhsil naziri Emin Əmrullayev COVID-19 pandemiyası dövründə təhsil müəssisələrinin fəaliyyətinin təşkili ilə bağlı avqustun 27-də keçirilən brifinqdə deyib.





O bildirib ki, pandemiya dövründə təhsillə bağlı ictimaiyyət ənənəvi və distant təhsilin hansının yaxşı olması barədə düşünür. Ancaq biz ən uyğun və riskli olmayan təhsil barədə düşünməliyik, ən səmərəli olan təkliflər əsas götürülməlidir. Ümumi məntiq ondan ibarətdir ki, təhsil müəssisələrinin fəaliyyəti bərpa edilməlidir.

Təhsil naziri diqqətə çatdırıb ki, Azərbaycanda təhsil müəssisələri sentyabrın 15-də mərhələli şəkildə açılacaq. Sentyabrın 15-dən ibtidai siniflər dərsə başlayacaq. Bu il ibtidai siniflərdə 650 min şagird təhsil alacaq. Bağçaların da fəaliyyəti bu tarixdə bərpa olunacaq.

Yuxarı sinif şagirdləri isə sentyabrın 15-də onlayn tədrisə başlayacaqlar. Zamanla bu sinifdə təhsil alan şagirdlər üçün də ənənəvi təhsil bərpa olunacaq. Oktyabrın 1-dən etibarən 5-9-cu siniflər, oktyabrın 15-dən etibarən isə 10-11-ci sinif şagirdlərinin ənənəvi təhsilinin bərpası nəzərdə tutulur.

Məktəb binasına daxil olarkən həm müəllimlərin, həm də şagirdlərin hərarəti ölçüləcək, tibbi maskalardan istifadə olunacaq, sosial məsafə gözləniləcək, mütəmadi olaraq dezinfeksiya işləri görüləcək.

Nazir qeyd edib ki, məktəbəhazırlıq qruplarında 120 min şagird oktyabrın 1-dən dərslərə başlayacaq. Məktəbəhazırlıq qruplarında uşaqlar həftədə 6 saatlıq (həftədə 2 gün 3 saat olmaqla) tədris planı əsasında tədrisə cəlb olunacaq. Məktəbəhazırlıq siniflərində şagird sayı nəzərə alınacaq.

İnternat məktəblərində də tədrisə oktyabrın 1-dən mərhələli şəkildə start veriləcək.

Uşaqlarını məktəbə göndərmək istəməyən valideynlərlə xüsusi razılaşma aparılacaq: "Valideyn məlumatlandırılacaq ki, minimum birinci yarım il ərzində şagird valideynin nəzarəti altında həm teledərslərə baxmalı, həm məktəbin təşkil etdiyi "virtual dərslər"də iştirak etməlidir. Xüsusi karantin rejimi dövründə Təhsil Nazirliyi tərəfindən teledərslər və "Virtual məktəb" layihələri də davam etdiriləcək. Şagird mütəmadi olaraq məktəbdə keçirilən seyrək cədvəllə də olsa, kiçik və böyük summativ qiymətləndirmələrdə gəlib iştirak etməlidir ki, onun birinci yarım il üzrə attestasiyası nəzərə alınsın. Bir qrup valideynin uşağını məktəbə göndərməyəcəyini də nəzərə alsaq, şagird sıxlığını azalda biləcəyik".

Emin Əmrullayev məlumat verib ki, pandemiya dövründə təhsil sistemində elektronlaşma və rəqəmsallaşma çox sürətlə gedib: "Aprel və mart ayları ərzində 1 milyon şagird, 100 mindən çox müəllim "Virtual məktəb"ə qoşulub. Özəl şirkətlərlə əldə olunan razılaşmaya əsasən, 40 min müəllimə internet paketlər təqdim olunub".

Nazir vurğulayıb ki, xüsusi karantin rejimi dövründə təhsil müəssisələrində xüsusi risk qrupuna daxil olan müəllimlər əməkhaqqı saxlanılmaqla tədrisdən uzaqlaşdırılacaq, həmin müəllimlər digərləri ilə əvəz olunacaqlar: "Belə bir qərar almaqda məqsədimiz müəllimlərimizin sağlamlığının qayğısına qalmaqdır".

Təhsil naziri deyib ki, pandemiya kəskinləşərsə, məktəblərin bağlanması lokal xarakter daşıyacaq, bütün təhsil müəssisələri yox, kütləvi yoluxmalar olan təhsil müəssisələri bağlanacaq.

Ali təhsil alan tələbələrin yüksək hərəkətlilik və yoluxma risklərini nəzərə alaraq, tədris prosesinin bu təhsil pilləsində dərslər sentyabrın 15-dən distant formada davam etdiriləcək. Birinci kurslar isə sentyabrın 15-dən qəbul olunduqları ali təhsil müəssisəsinə gələ biləcəklər.

Təhsil nazirinin müşaviri Rüstəm Ağayev "Məktəblinin dostu" layihəsi haqqında məlumat verib. Bildirib ki, 2016-cı ilin dekabrından fəaliyyət göstərən bu layihənin əsas məqsədi müəllim və şagirdlər üçün daha təhlükəsiz mühit yaratmaq, fövqəladə hal baş verdikdə ilk tibbi və psixoloji yardım göstərmək, mütəmadi olaraq şagird, valideyn, təlim-tərbiyə müəssisələrinin kollektivi ilə maarifləndirmə və diaqnostik işlər aparmaqdır. Bununla yanaşı, "Məktəblinin dostu" seçilmiş şəxslər hər bir yaş mərhələsində uşaqların hərtərəfli şəxsi keyfiyyətlərinin və intellektual inkişafının təmin edilməsi, onlarda özünütərbiyə və özünüinkişaf bacarığının formalaşdırılmasında iştirak edirlər.

Məktəblər açılanda "Məktəblinin dostu" layihəsi çərçivəsində məktəblərdə xüsusi nəzarət aparılacaq. Layihə əməkdaşları məktəblərdə hərarətin ölçülməsinə, spirtdən istifadəyə və ara məsafənin qorunmasına nəzarət edəcəklər.

Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov diqqətə çatdırıb ki, "Microsoft Teams" platforması Azərbaycan dilinə tərcümə olunur. Bununla bağlı "Microsoft Teams" şirkətinə müraciət edilib və artıq tərcümə prosesi gedir. Yay aylarında isə şirkət tərəfindən 30 min istifadəçiyə proqramdan istifadə qaydaları ilə bağlı təlim keçilib.

## TƏBİB-in İdarə Heyəti yanında Tibbi-Elmi Komitənin iclasında COVID-19 vaksininin tətbiqi strategiyası ilə bağlı təkliflər dinlənilib

Avqustun 27-də TƏBİB-in İdarə Heyəti yanında "COVID-19 virus infeksiyası ilə bağlı preventiv tədbirlərin və yeniliklərin öyrənilməsi ilə bağlı Tibbi-Elmi Komitə"nin növbəti iclası keçirilib.



TƏBİB-dən AZƏRTAC-a bildirilib ki, onlayn formatda keçirilən iclasda TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı, TƏBİB-in Tibbi xidmətlər departamentinin müdiri Firəngiz Əliyeva, komitənin sədri, ATU-nun Tibbi mikrobiologiya və immunologiya kafedrasının professoru, t.e.d. Akif Qurbanov və komitə üzvləri iştirak edib. İclasda koronavirus pandemiyası ilə bağlı ölkəmizdəki vəziyyət, "COVID-19 virusuna qarşı endogen müdafiə resurslarına əsaslanan müalicə üsulunun işlənilməsi" adlı qrant layihəsi, COVID-19 pnevmoniyasının patogenetik müalicəsinə yeni yanaşmalar və s. mövzularda müzakirələr aparılıb.

Sonda, Azərbaycanda COVID-19 vaksininin tətbiqi strategiyası haqqında Tibbi-Elmi Komitənin təklifləri dinlənilib.

Qeyd edək ki, komitə TƏBİB-in İdarə Heyəti sədrinin müvafiq əmri ilə COVID-19 virus infeksiyası ilə bağlı preventiv tədbirlərin və yeniliklərin öyrənilməsi məqsədilə yaradılıb.

## Şirvan şəhərinə monitorinq məqsədilə TƏBİB-in işçi qrupu ezam olunub və bir sıra qüsurlar aşkarlanıb

Son günlər Şirvan şəhərində koronavirusa yoluxma faktlarının intensivliyinin artmasının tibb müəssisələrindən qaynaqlandığı müəyyən edilib. Şirvan şəhərinə monitorinq məqsədilə Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) işçi qrupu ezam olunub və bir sıra qüsurlar aşkarlanıb.

TƏBİB-dən AZƏRTAC-a daxil olan açıqlamada deyilir: "Bu qüsurların aradan qaldırılması məqsədilə, Şirvan şəhər Mərkəzi Xəstəxanası və Şirvan şəhər Müalicə-Diaqnostika Mərkəzində bir sıra tədbirlər görülüb.

Daha ciddi preventiv tədbirlərin görülməsi üçün ÜST-nin baş epidemioloqunun son tövsiyələri və indiyədək əldə olunmuş təcrübə nəzərə alınaraq bütövlükdə şəhərin deyil, yoluxma mənbəyinin lokal qapanması barədə qərar qəbul edilib. Belə ki, əhali əvvəlcədən məlumatlandırılmaqla zəruri izolyasiya və dezinfeksiya tədbirlərinin həyata keçirilməsi məqsədilə Şirvan şəhər Mərkəzi Xəstəxanası, eləcə də Şirvan şəhər Müalicə-Diaqnostika Mərkəzinə xəstə qəbulu müvəqqəti olaraq dayandırılacaq. Bu zaman xəstəxanada əvvəlcədən müalicə alan xəstələrin müalicəsi davam etdiriləcək, yeni müraciət edən xəstələrə ambulator və stasionar xidmətlərin göstərilməsi ətraf rayonların xəstəxanalarında təmin ediləcək".

Qeyd edək ki, Nazirlər Kabineti yanında Operativ Qərargah ÜST-nin tövsiyələrini nəzərə alaraq, yoluxma intensivliyinin çox olduğu ərazilərdə yoluxma mənbəyinin lokal qapanma tədbirlərinə üstünlük verəcək.

## Azərbaycanda koronavirus infeksiyasına daha 137 yoluxma faktı qeydə alınıb, 83 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 137 yoluxma faktı qeydə alınıb, 83 nəfər müalicə olunaraq sağalıb.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 35 min 844 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 33 min 64 nəfər müalicə olunaraq sağalıb, 524 nəfər vəfat edib. Aktiv xəstə sayı 1956 nəfərdir.

Ötən müddət ərzində 898 min 492 test aparılıb. Dünənki test sayı isə 6422-dir.

# Qanun qarşısında məsuliyyət və cavabdehlik ali iradənin tələbidir

### Hər bir şəxs Azərbaycan Prezidentinin mövqeyini bilməli və başa düşməlidir ki, qanun pozuntusuna görə mütləq şəkildə cavab verməli olacaqdır









*Əvvəli 1-ci səh.*

### Azərbaycan infeksiya ilə bağlı düzgün tədbirlər həyata keçirir

Azərbaycanda virusun üzə çıxdığı ilk zamandan etibarən ona qarşı effektiv tədbirlərə start verilib və vətəndaşların həyatı, sağlamlığı prioritet məsələ kimi önə çıxarılıb. Pandemiya ilə mübarizədə qəbul edilən bütün qərarların arxasında məhz əhalinin sağlamlığı, rifahı, təhlükəsizliyinin etibarlı təmini dayanıb.

Prezident İlham Əliyevin rəhbərliyi və ciddi nəzarəti altında qlobal bəlaya qarşı həyata keçirilən operativ, məqsədyönlü tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa, sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verib, kütləvi yoluxmanın qarşısını alıb. Məhz dövlət rəhbərinin tapşırığı altında pandemiyaya qarşı vaxtında görülmüş preventiv tədbirlər sayəsində Azərbaycan dünyanı bürümüş virusa qarşı mübarizədə nümunəvi ölkələr sırasında qərarlaşıb.

Dəfələrlə Azərbaycanın COVID-19-la uğurlu mübarizəsi ÜST tərəfindən təqdir edilib. Qurum Azərbaycanda infeksiya ilə bağlı hazırda da həyata keçirilən tədbirlərin doğru olduğunu bir daha vurğulayıb.

### Pandemiya ilə əlaqədar bütün problemlər kompleks şəkildə həllini tapır

Vətəndaşların xəstəlikdən qorunması üçün bütün sahələrdə, xüsusilə də səhiyyə sektorunda keçirilən lazımi tədbirlər sayəsində virusa yoluxan 30 mindən çox vətəndaşımız müalicə olunaraq sağaldılıb və ailəsinə qovuşub. Qısa zaman ərzində 20-dən artıq xəstəxana koronavirus xəstələrinin ixtiyarına verilib. Prezident İlham Əliyevin sərəncamına əsasən, bölgələri də əhatə etməklə modul tipli xəstəxanalar quraşdırılıb. Beləliklə, ölkədə koronavirusla birbaşa mübarizə üçün 10 mindən artıq çarpayı yeri hazırlanıb, 35 rayon və şəhərdə 46 xəstəxana bu istiqamətdə fəaliyyətə başlayıb.

Koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün lazım olan laboratoriyaların sayı pandemiya başlayandan qısa müddət ərzində 5 dəfə artaraq 6-dan 31-ə çatdırılıb. Yaxın zamanlarda isə laboratoriyaların sayının 45-ə çatdırılması planlaşdırılır.

Koronavirus xəstələrinin dövlət hesabına müalicəsi, həkimlərin sayının artırılması və təcrübə mübadiləsi məsələləri də kompleks şəkildə həll olunur. Eyni zamanda, həmişə olduğu kimi, bu dövrdə də insanların sosial rifahı diqqətdən kənarda qalmayıb. Pandemiyadan əziyyət çəkən insanların maddi və mənəvi cəhətdən dəstəklənməsi, ölkə iqtisadiyyatına dəyən ziyanın aradan qaldırılması üçün dövlət tərəfindən təqribən 5 milyon nəfəri əhatə edən məşğulluq və sosial rifaha dəstək paketi icra olunub.

### Zamanında verilən vacib qərarlar

Artıq 7-ci aydır ki, respublikamızda əhalinin sağlamlığının qorunması və təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir çox məhdudiyyətləri nəzərdə tutan xüsusi karantin rejimi tətbiq olunub. Bununla əlaqədar Milli Məclis tərəfindən bir sıra qanunlar da qəbul edilib, cərimələr müəyyənləşdirilib.

Məhz ölkədəki sanitar-epidemioloji vəziyyətin təhlilinə əsaslanaraq zamanında tətbiq edilən karantin rejimi və müəyyən məhdudiyyətlər hazırda koronavirusa yoluxma sayında əldə olunan nailiyyətlərə birbaşa stimul verib. Hətta yoluxma sayı azaldığı üçün bəzi xəstəxanalar da bağlanıb. Son zamanlar müsbət dinamikanın tendensiya halını alması qarşısında yumşalmalara keçidi sürətləndirib. Belə ki, avqustun 5-dən SMS icazə sistemi ləğv edilib, çimərliklər açılıb. Bu ayın 10-dan iqtisadi aktivliyin gücləndirilməsinin zərurəti nəzərə alınaraq, sərt karantin rejiminin yumşaldılması istiqamətində növbəti tədbirlər paketi qüvvəyə minib.

Müvafiq qərara əsasən, sərtləşdirilmiş karantin rejiminin tətbiq olunduğu Bakı, Sumqayıt, Gəncə, Yevlax, Masallı, Cəlilabad, Mingəçevir şəhərlərinin və Abşeron, Bərdə, Salyan, Xaçmaz, Goranboy, Göygöl rayonlarının ərazilərində qeyd olunan tarixdən etibarən bir sıra istehsal, ticarət və xidmət sahələrinin fəaliyyətinə icazə verilib. İri ticarət mərkəzləri və "Mall"lardan başqa, qeyri-ərzaq məhsullarının satışı ilə məşğul olan mağazalar açılıb, bəzi sahələr üzrə işə cəlb olunan işçilərin sayına tətbiq edilmiş məhdudiyyətlər aradan götürülüb. Ayın 18-dən ictimai iaşə obyektlərində müştərilərə açıq hava şəraitində xidmət göstərilməsinə başlanılıb, 21-dən isə milli parkların qapıları ziyarətçilərin üzünə açılıb.

### Qanunun tələblərini pozanlara qarşı tədbirlər daha da sərtləşdiriləcəkdir

Bununla belə, koronavirusla mübarizəyə ciddi təhdid yaratdığına görə, kütləvi tədbirlərin, o cümlədən yas və toy mərasimlərinin keçirilməsinə qadağa qüvvədə saxlanılıb.

Təəssüf ki, qoyulan qadağalara əməl etməyərək və xüsusi karantin rejiminin tələblərini pozaraq əyləncə təşkil edən, toy, yas kimi kütləvi mərasimlər keçirən şəxslər də olub ki, həmin şəxslər indiyə qədər daxili işlər orqanları tərəfindən müvafiq qaydada məsuliyyətə cəlb ediliblər.

Bu günlərdə isə bəzi vəzifəli şəxslərin, məmurların müxtəlif toy mərasimləri təşkil etməsinə dair məlumatlar cəmiyyətin ciddi hiddətinə səbəb olub və qınağına məruz qalıb. Amma Azərbaycan hüquqi dövlətdir, ölkəmizdə qanunun aliliyi təmin edilib, heç kim qanundan üstün ola bilməz, hamı qanun qarşısında bərabərdir və öz hərəkətlərinə görə məsuliyyət daşıyır.

Azərbaycan Prezidenti ölkədə qanunun aliliyinin qarantıdır, hər kəsin qanun qarşısında məsuliyyəti və cavabdehliyi ali iradənin tələbidir. Heç bir vəzifəli şəxs öz statusundan istifadə edərək qanunları poza və tələblərinə hörmətsiz yanaşa bilməz. Belə şəxslər müəyyən olunduqda mütləq şəkildə məsuliyyətə cəlb edilirlər, onların barəsində cəza tədbirləri görülür və qarşıdan gələn dövrdə bu tədbirlər daha da sərtləşdiriləcəkdir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib

Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında növbəti məhkəmə iclası keçirilib.

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Bakı Apelyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Mülki və Vergi məcəllələrinin, "İpoteka haqqında" və "İcra haqqında" qanunların bəzi müddəalarının əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim R.İsmayılovun məruzəsini, maraqlı subyektlərin - Bakı Apelyasiya Məhkəməsinin və Milli Məclisin nümayəndələrinin yazılı çıxışlarını dinləyib, Ali Məhkəmənin, Mərkəzi Bankın və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin mütəxəssislərinin yazılı mülahizələrini və işin materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, ipoteka saxlayanın məhkəmə qaydasında təmin olunmuş tələbi əsasında keçirilmiş təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi zamanı sadələşdirilmiş verginin ödənilməsi qaydalarının bu qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla mümkün qədər qısa müddət ərzində tənzimlənməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# Prokurorluq əməkdaşları mütəşəkkil cinayətkarlıq fəaliyyəti nəticəsində əldə olunan aktivlərlə bağlı onlayn videogörüşdə iştirak ediblər

Prokurorluq əməkdaşlarının maliyyə xarakterli cinayətlərin araşdırılması sahəsində bilik və bacarıqlarının artırılması məqsədilə görülən tədbirlər çərçivəsində onların təlim kurslarında, treninqlərdə, o cümlədən beynəlxalq təlimlərdə iştirakı təmin olunur.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, belə tədbirlərin davamı olaraq Birləşmiş Millətlər Təşkilatının Cinayət və Ədliyyə üzrə Regionlararası Tədqiqat İnstitutunun (UNICRI) ekspertləri və Azərbaycan Respublikasının Prokurorluq orqanları əməkdaşlarının iştirakı ilə "Zoom" onlayn platforması vasitəsilə videogörüş keçirilib.

Videogörüşdə UNICRI-nin aktivlərin bərpası üzrə ekspertləri ilə yanaşı, Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin böyük prokuroru Rövşən Abdullayev, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin əməkdaşı Elmir Zeynalov və Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin prokuroru Kamil Kamilli iştirak ediblər.

Tədbirdə mütəşəkkil cinayətkarlıq fəaliyyəti nəticəsində əldə edilən aktivlərin səmərəli şəkildə izlənilməsi və müsadirəsi, qanunsuz əldə edilmiş aktivlərin dondurulması, saxlanılması, müsadirə edilməsi və bərpası istiqamətində fəaliyyətin qurumlararası və transsərhəd şəkildə əlaqələndirilməsinin təkmilləşdirilməsi, COVID-19 pandemiyasının müxtəlif sahələr, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsi üzərindəki mənfi təsirləri kimi aktual mövzuların müzakirəsi həyata keçirilib, həmin mövzularla əlaqədar ayrı-ayrı ölkələrin müsbət təcrübələri dinlənilib.

# Azərbaycanın və Rusiyanın Baş prokurorluqları arasında səmərəli əməkdaşlıq davam etdirilir

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən milli qanunvericiliyin və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, o cümlədən "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" Minsk Konvensiyasının tələblərinə əsasən Rusiya Federasiyasının Baş Prokurorluğu ilə ikitərəfli münasibətlər çərçivəsində Azərbaycan Respublikasının ərazisində cinayət törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsindən ötrü ekstradisiya olunmaları barədə sorğular edilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Abşeron Rayon Məhkəməsinin icraatında olan cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilmiş Faiq Quliyevin arvadı Xəyalə Quliyevaya yaşadığı evdə ailə münaqişəsi zəminində aralarında yaranmış mübahisə zamanı sağlamlığına az ağır zərər vurmaya aid bədən xəsarəti yetirməsinə, Şəmkir Rayon Polis Şöbəsinin istintaq bölməsində istintaq edilən cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb olunmuş İslam Məmmədovun bir neçə şəxsin etibarından sui-istifadə edərək özgə əmlakını ələ keçirmək məqsədilə təkrar dələduzluq əməlini törətmələrinə əsaslı şübhələr müəyyənləşdirilib.

Həmin şəxslər barəsində beynəlxalq axtarış elan olunub.

Axtarışda olan şəxslərin yerlərinin müəyyənləşdirilməsi əsası ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun Rusiya Federasiyasının Baş Prokurorluğuna etdiyi sorğular təmin olunub. Faiq Quliyev və İslam Məmmədov Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə ölkəmizə ekstradisiya ediliblər.

# ADA Məktəbinə yeni qəbul edilmiş şagirdlər və onların valideynləri üçün onlayn "Tanışlıq günləri" keçiriləcək

Avqustun 28-29-da ADA Məktəbinə yeni qəbul edilən şagirdlər və onların valideynləri üçün onlayn "Tanışlıq günləri" keçiriləcək.

ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı rektor, səfir Hafiz Paşayev, tədris məsələləri üzrə prorektor Vəfa Kazdal və ADA Məktəbinin təlim-tədris heyətinin üzvləri iştirakçılar qarşısında çıxış edəcəklər.

Görüşə qoşulan şagird və valideynlər ADA Məktəbində tədris prosesi, məktəb həyatı, nizam-intizam və onlayn resurslardan istifadə qaydaları ilə bağlı ətraflı məlumat əldə edəcəklər.

Şagirdlərə nəzəri biliklərlə yanaşı, praktiki bacarıqlar da təqdim edərək onları universitet həyatına hazırlayan ADA Məktəbinə bu il müsabiqə yolu ilə ümumilikdə 274 nəfər şagird qəbul edilib. Onlardan 245 nəfəri X sinfə, 29 nəfəri isə XI sinfə qəbul ediliblər.

Qeyd edək ki, 2019-cu ildən fəaliyyətə başlayan ADA Məktəbində tədris proqramı Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası - Milli Kurikulumuna və ADA Universitetinin təcrübəsinə əsaslanır.

ADA Məktəbində təhsilini uğurla başa vuran məzunlar xüsusi şərtlərlə və müvafiq qaydalar əsasında ADA Universitetinə qəbul edilirlər. ADA Məktəbi barədə ətraflı məlumatı **https://www.ada.edu.az/en/school** linkində əldə etmək mümkündür.

Onlayn "Tanışlıq günləri"nin proqramı **https://bit.ly/3hxUm4F** linkində yerləşdirilib.

# MDB-yə üzv ölkələrin Dövlətlərarası Ekologiya Şurasının 6-cı iclası

Avqustun 27-də Minskdə MDB-nin İcraiyyə Komitəsində Müstəqil Dövlətlər Birliyinə üzv olan ölkələrin Dövlətlərarası Ekologiya Şurasının videokonfrans rabitəsindən istifadə olunmaqla 6-cı iclası keçirilib.

AZƏRTAC MDB-nin İcraiyyə Komitəsinin Mətbuat xidmətinə istinadla xəbər verir ki, İcraiyyə Komitəsinin sədrinin birinci müavini Viktor Quminski ətraf mühitin təhlükəsizliyinin təminatının bəşəriyyət qarşısında duran qlobal problemlərdən biri olduğunu və bu problemin təkcə bir dövlətin səyləri çərçivəsində həllinin mümkünsüzlüyünü qeyd edib. Məhz buna görə bu sahədə əməkdaşlıq MDB-yə üzv ölkələrin Dövlətlərarası Ekologiya Şurası çərçivəsində icra edilir. Şuranın fəaliyyəti razılaşdırılmış tədbirlərin hazırlanmasına və icrasına, həmçinin ətraf mühitin qorunması və təbiətdən istifadə sahəsində vahid ekoloji norma və standartlar sisteminin yaradılmasına istiqamətlənib. Viktor Quminskinin fikrincə, dünya birliyi və MDB-yə üzv ölkələr üçün ətraf mühitin qorunub saxlanması və iqtisadi inkişaf arasında dayanıqlı tarazlıq əldə edilməsi prinsipial əhəmiyyətli məsələdir. Bununla bağlı səy göstərilməlidir ki, istehsalın modernləşdirilməsi və texniki cəhətdən tamamilə yeniləşdirilməsi təbiəti mühafizə sahəsində qanunvericiliyə uyğun olsun, "yaşıl iqtisadiyyat"a keçidi stimullaşdırsın, vətəndaşlarımızın ekoloji mədəniyyətinin formalaşmasına kömək etsin.

O əminliyini bildirib ki, Şuranın iclası işgüzar və konstruktiv şəraitdə keçəcək, qəbul edilən qərarlar isə Birlik məkanında dövlətlərarası ekoloji əməkdaşlığın möhkəmləndirilməsinə yardım edəcək, insan fəaliyyətinin və iqtisadiyyatın ətraf mühitə mənfi təsirini azaldacaq və bundan sonrakı səmərəli tərəfdaşlığın dərinləşməsinə xidmət edəcək.

Tədbir iştirakçıları Şuranın bundan əvvəlki iclasının qərarlarının icrasının gedişini və onun iş planını müzakirə ediblər.

Şuranın üzvləri öz ölkələrində təbiəti mühafizə fəaliyyəti çərçivəsində müasir informasiya texnologiyalarından istifadə sahəsində və su hövzələrinin idarə edilməsi planlarının işlənib hazırlanması sferasında təcrübə mübadiləsi aparıblar.

Həmçinin transsərhəd ərazilərdə kompleks ekoloji monitorinqin inkişafı məsələləri müzakirə edilib və MDB-nin Elektroenergetika Şurasının və MDB-yə üzv ölkələrin Dövlətlərarası Ekologiya Şurasının 2023-cü ilədək olan dövr üçün birgə fəaliyyət planı təsdiqlənib.

İclasda MDB-yə üzv ölkələrin Dövlətlərarası Ekologiya Şurasının növbəti müddətə sədri seçilib. Bu vəzifəyə Belarus Respublikasının Təbii Sərvətlər və Ətraf Mühitin Mühafizəsi naziri Andrey Xudık təyin edilib.

# *Vüqar GÜLMƏMMƏDOV:* "Pandemiyanın yaratdığı çətinliklər makrofiskal çərçivəyə yenidən baxılmasını zəruri edib"

Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov AZƏRTAC-a müsahibəsində yeni növ koronavirus pandemiyasının yaratdığı sosial-iqtisadi çətinliklərlə əlaqədar cari ilin dövlət büdcəsinə dəyişikliklər və növbəti ilin büdcə layihəsi ilə bağlı fikirlərini bölüşüb. Müsahibəni təqdim edirik.



**- Milli Məclis 2020-ci ilin dövlət büdcəsinə dəyişiklikləri təsdiq etdi. Hesablama Palatası qanunvericiliyin tələbinə uyğun olaraq bununla bağlı rəyini təqdim edib. Rəylə bağlı əlavə nələri qeyd etmək olar?**

- Cari ildə dünya ölkələrində sosial və iqtisadi vəziyyəti şərtləndirən ən vacib amil yeni növ koronavirusun yaratdığı şəraitdir. Pandemiyanın yaratdığı çətinliklər dövlət maliyyəsinin idarə edilməsi sisteminə yenidən baxılmasını, makrofiskal çərçivənin bir daha nəzərdən keçirilməsini tələb edib. Əsas bir məqam qeyd olunmalıdır ki, bu hal bir sıra büdcə institutlarının tətbiqini də mümkünsüz edib. Məlumat üçün bildirək ki, pandemiyanın qarşısının alınması məqsədilə dünyada 30-dan artıq ölkə dövlət büdcəsi haqqında cari ilin büdcə qanununa əlavə və dəyişikliklər edib.

Aydındır ki, belə bir "müharibə" şəraiti dövlətin bütün alətlərinin səfərbər olunmasını zəruri edir və bu, ilk növbədə, sosial parametrlərin qorunması, daha sonra isə iqtisadi inkişafın tənəzzülünün zəiflədilməsi və postpandemiya mərhələsində inkişafın sürətləndirilməsi ilə bağlı tədbirləri əhatə etməlidir.

Resursların reallokasiyası üçün yaranmış zərurət fonunda əksər hallarda siyasi təsirlər səbəbilə dünya bazarında əhəmiyyətli xammal növləri üzrə təklifin və həmçinin tələbin dəyişməsi digər ölkələrlə yanaşı, Azərbaycanda da dövlət büdcəsinin gəlir və xərc imkanlarının yenidən nəzərdən keçirilməsini aktuallaşdırıb. Eyni zamanda, əsas makroparametrlərin davranışı ilə bağlı qeyri-müəyyənliklər, xüsusilə də cari ilin ikinci və üçüncü rüblərində tətbiq edilən sərt karantin rejiminin bu parametrlərin zəifləmə meyillərini şərtləndirməsi büdcəyə yenidən baxılması zərurəti yaradıb.

Qeyd edim ki, Hesablama Palatası cari ilin aprel ayında dövlət büdcəsinə yenidən baxılması zərurəti və dəyişikliklər üzrə təkliflərini Nazirlər Kabinetinə təqdim edib.

**- Dəyişikliklərin əsas xüsusiyyətlərini necə vurğulamaq olar?**

- Dövlət büdcəsində gəlirlərin azaldılması son illərdə əsas maliyyə sənədinə yenidən baxılması üçün, demək olar ki, ilk dəfə nəzərdən keçirilən bir hal kimi xarakterizə olunmalıdır. Aydındır ki, qlobal karantin şərtləri bütün səviyyələr üzrə gəlirlərin azalmasına səbəb olub.

Dövlət büdcəsi ilə bağlı qanuna rəy verdiyimiz dəyişikliklər real sektor üzrə azaldılan büdcə daxilolmalarının, əsasən, Dövlət Neft Fondunun büdcəyə transfertinin artırılması hesabına kompensasiya olunmasını nəzərdə tutur və bununla da dövlət büdcəsi gəlirlərinin ümumi məbləğinin təxminən ilkin səviyyədə saxlanılması təmin edilib. Həmçinin gəlirlərin strukturunda neft gəlirlərinin artımı, qeyri-neft gəlirlərinin isə azalması gözlənilir. Amma qeyd edək ki, neft gəlirlərinin tərkibində nəzərdə tutulmuş artım neft sazişləri çərçivəsində fəaliyyət göstərən podratçı tərəflərin mənfəət vergisinin 24,7 faiz və Dövlət Neft Şirkətinin büdcə ödənişlərinin isə 14,5 faiz azalması fonunda Dövlət Neft Fondunun transfertinin artımı ilə səciyyələnir.

Ümumiyyətlə, Hesablama Palatası xərclərin optimallaşması ilə bağlı işlərin həyata keçirilməsi fonunda bu istiqamətdə potensial və imkanların hələ də mövcud olması qənaətindədir. Hesab edirik ki, məhz bu potensialın reallaşdırılması dərəcəsi Dövlət Neft Fondundan transfertin məbləğinə təsir edən əsas göstəricilərdəndir.

Vurğulanmalıdır ki, bəzi tədiyə növləri üzrə proqnozlaşdırılan azalma meyli əgər yaşadığımız pandemiya şəraitinin təsiri ilə birbaşa korrelyasiya olunursa, bəzi tədiyələrdə nəzərdə tutulmuş dəyişikliklər xüsusi rejimin gəlirlərin azalmasına olan təsirinin kompensasiya edilməsi məqsədini daşıyır. İkinci bir xüsusiyyət kimi büdcə gəlirlərinin strukturunda bəzi tədiyə növləri üzrə proqnozların artırılması qeyd edilməlidir. Bu isə tərəfimizdən ilkin təsdiq olunmuş göstəricilər üzrə müvafiq icra hakimiyyəti orqanının korrektəsi kimi qəbul olunub.

Diqqətə çatdırılmalı digər bir məqam dövlət büdcəsinin vahid xəzinə hesabının sərbəst qalığının idarəetməyə verilməsindən daxilolmaların təsdiq edilmiş proqnoz göstəricisindən 17,5 dəfə çox olmaqla nəzərdə tutulmasıdır. Xatırladaq ki, 2020-ci ilin dövlət büdcəsi ilə bağlı rəydə sərbəst qalığın idarəetməyə verilməsindən daxilolmalar üzrə kifayət qədər ehtiyat məbləğin mövcudluğu Hesablama Palatası tərəfindən qeyd olunub.

Xərclərlə bağlı aparılan dəyişikliklər funksional təsnifatın 9 bölməsində azalmanı və 3 bölməsində artımı əhatə edir. Qeyd edək ki, azalmalar, əsasən, pandemiyanın yaratdığı çətinliklər fonunda formalaşan xərcləri əhatə etsə də, artımı xüsusilə iki istiqamət üzrə qruplaşdırmaq mümkündür: səhiyyə sistemində yaranan əlavə xərclərin maliyyələşdirilməsi məqsədini güdən xərclər və iqtisadi fəaliyyətin qorunması, postpandemiya şəraitində artımı stimullaşdıracaq tədbirlər üzrə xərclər. Hesab edirik ki, yaranmış vəziyyətlə bağlı büdcədə aparılan dəyişikliklər cari şərtlərə adekvat xarakteri ilə seçilir və mümkün risklərdən səmərəli sığortalanma kimi qiymətləndirilməlidir.

Yaşadığımız şərait dövlət vəsaitlərinin qənaətli və səmərəli istifadəsi ilə bağlı meyarların daha ciddi şəkildə tətbiqini tələb edir. Ən əsası isə, bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən dəfələrlə səsləndirilmiş və icra üçün qurumlar qarşısında müəyyənləşdirilmiş bir tələbdir. Vəsaitlərin səmərəli və qənaətli istifadəsinin təmin edilməsi yollarından biri də rəqabətliliyin təmin olunmasından keçir.

**- Rəqabətliliyin təmin olunması dövlət satınalmalarını xarakterizə edən əsas göstəricilərdəndir və bu da dünya ölkələrində nəzarət institutlarının diqqət yetirdiyi məsələlərdəndir.**

- Tamamilə düzgün qeyddir və kənar dövlət maliyyə nəzarəti orqanı olaraq Hesablama Palatası nəzarət tədbirlərində dövlət satınalmalarına xüsusi diqqət yetirir. Satınalmaların əhəmiyyətini və hazırkı dövrdə vacibliyini KİV də xüsusilə vurğulayır. Qeyd edək ki, bu, dövlət başçısının ictimai nəzarətin təmin edilməsi ilə bağlı verdiyi tapşırıqların icrasında da xüsusilə mühümdür.

Eyni zamanda müəyyən edilmiş prosedurların dəqiq tətbiqi satınalmaların əsas məqsədinin - rəqabətliliyin təmin olunması məqsədinin də reallaşdırılmasına şərait yaradır.

Dövlət satınalmaları iqtisadi xarakteri ilə yanaşı, sosial mahiyyətə də malikdir. Belə ki, dövlət vəsaitləri hesabına rəqabətli prosedurların tətbiqi orta sinfin formalaşmasında vacib amil olan kiçik və orta sahibkarlığın bərabər şərtlərlə dövlət vəsaitlərinə çıxışına imkan yaradır. Bu isə öz növbəsində bir tərəfdən vergi və sosial sığorta yığımlarının dayanıqlılıq şərtlərini formalaşdırmaqla, ikinci bir tərəfdən vətəndaşlara öz imkanları hesabına özünün və ailəsinin yaşayışını təmin etməsi üçün şəraiti formalaşdırmaqla dövlətin passiv sosial müdafiə tədbirləri üzrə maliyyə imkanlarının aktiv tədbirlərə yönəldilməsinə şərait yaradır.

**- Satınalmaların əhatəsinin geniş olması da vacib məsələdir.**

- Doğrudur. Dövlət satınalmaları iqtisadi artımın stimullaşdırılması aləti kimi istifadə edilir, baza xidmətlərinin göstərilməsinə, innovasiyaların irəliləməsinə səbəb olur, ətraf mühitin mühafizəsi sahəsində müasir çağırışların tələblərinin ödənilməsinə şərait yaradır. Ümumilikdə isə dövlət satınalmaları Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında əhəmiyyətli rola malikdir.

Dövlət vəsaitləri, xüsusilə də dövlət büdcəsi xərcləri hesabına satınalmaların sərhədlərinin genişləndirilməsi olduqca əhəmiyyətlidir. Həmin genişlənmənin çərçivələrinin müəyyənləşdirilməsi üçün həyata keçirilmiş dövlət satınalmalarına yönəldilən vəsaitlərin büdcə xərclərinə və ümumi daxili məhsula (ÜDM) nisbət göstəricisindən istifadə edilir.

Qeyd edək ki, 2019-cu ildə ölkəmizdə ümumilikdə 11 min 457 sayda satınalma tətbiq edilməklə 5720,02 milyon manat məbləğində satınalma keçirilməsi ilə bağlı protokol rəsmiləşdirilib. 2019-cu ildə 2018-ci illə müqayisədə ölkəmizdə keçirilmiş satınalmaların əhatə məbləği 93,01 milyon manat və ya 1,6 faiz az olub. Bu azalma meylinin əksinə, dövlət satınalmalarının sayı 534 və ya 4,89 faiz çox olub, dövlət büdcəsindən alışlara cəlb edilən vəsaitlərin məbləğində də azalma olmayıb. Satınalmaya cəlb olunmuş dövlət vəsaitinin ümumi daxili məhsulda payı 10 faizdən aşağı və dövlət büdcəsində payı isə illik xərcləmələrin dörddəbirindən çox deyil.

Məlumat üçün qeyd edək ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) üzv ölkələrdə dövlət satınalmalarına yönəldilmiş vəsaitin orta hesabla ümumi daxili məhsula nisbəti 10,0-12,0 faiz, cəmi büdcə xərclərinə nisbəti isə 35,0-40,0 faiz təşkil edir.

Dünya Bankının məlumatlarına əsasən isə 2018-ci ildə dünya üzrə dövlət satınalmalarına 11,0 trilyon ABŞ dolları yönəldilib ki, bu da həmin il üçün 90,0 trilyon ABŞ dolları məbləğində qiymətləndirilən ümumdünya ÜDM-nin 12,2 faizinə bərabərdir. Digər bir məqamı da diqqətə çatdıraq ki, Dünya Bankının qiymətləndirmələrinə görə, ümumilikdə aşağı, orta və yuxarı gəlirli ölkələrdə dövlət satınalmalarının ÜDM-də payı, demək olar ki, eyni səviyyədədir. Bəzi ölkələrdə, məsələn, Türkiyədə, Pakistanda, İsveçrədə, Misirdə, Braziliyada dövlət satınalmalarının ÜDM-ə nisbəti 20,0 faizdən də çoxdur.

Ölkəmizdə bu göstəricinin formalaşmasına təsir edən amillərdən biri dövlət satınalmaları sahəsində uçot və hesabatlılıqla bağlıdır. Hesab edirik ki, dövlət satınalmaları haqqında yeni qanunun qəbulu və dövlət nəzarətinin gücləndirilməsi bu sahədə ciddi dəyişikliyə səbəb olacaqdır.

**- Cari şərtlərdən çıxış edərək 2021-ci ilin büdcəsi ilə bağlı Hesablama Palatasının ilkin mülahizələri maraqlıdır.**

- Hazırda növbəti ilin dövlət büdcəsinin tərtibi yekunlaşma mərhələsindədir və qanunvericiliyin tələblərinə uyğun olaraq Hesablama Palatası bununla bağlı öz rəyini təqdim edəcək. Mövcud şərtlərdən çıxış edərək Hesablama Palatası layihədə bir sıra məsələlərə diqqət yetirilməsini məqsədəmüvafiq hesab edir.

Birincisi, büdcə qaydası ilə bağlı qeyd edək ki, qarşıdakı ildə bu qaydaların tətbiqinin dayandırılmasının şərtləri və bu institutun bərpası ilə bağlı əsaslandırmalar əhəmiyyətlidir. Belə ki, büdcə qaydası fiskal intizam norması olduğu üçün ortamüddətli dövrdə təkrar tətbiqi zəruridir.

Orta Müddətli Xərclər Çərçivəsi (OMXÇ) əsasında tərtib ediləcək ilk büdcə olmasını nəzərə alaraq yeni büdcə planlaşdırılması metodu çərçivəsində hansı addımların atılacağı büdcə sənədlərində xüsusilə əks olunmalıdır. Əlavə olaraq, nəticə əsaslı büdcəyə keçidin ilkin pilot versiyası və büdcəyə hansı formada inteqrasiya edilməsi növbəti ilin dövlət büdcəsi xərclərində və zəruri sənədlərdə müəyyənləşdirilməlidir.

Məlum olduğu kimi, dövlət büdcəsi gəlirlərində neft amili xüsusi rola və paya malikdir. Büdcədə neft gəlirlərinin hələ də dominant olması nəzərə alınmaqla son 3 ildə 22,0-25,0 milyard manat arasında dəyişən büdcə xərclərinin strukturunun optimallaşdırılması növbəti ilin büdcə xərclərində mütləq atılmalı addımlardandır. Belə ki, bu xərclərin həcminin son 3 ildə əvvəlki dövrlə müqayisədə əhəmiyyətli dərəcədə artdığı, sosial-iqtisadi problemlərin həllinin dövlətin əsas məqsədi olduğu nəzərə alınmaqla, böyük büdcənin optimal və çevik struktura malik olması da vacib şərtdir.

Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertlərin mərhələli şəkildə azaldılması, qeyri-neft gəlirləri hesabına əvəz olunması və cari ildən institusional islahatlara start verilməsi ilə özəlləşdirmə, özəl investisiyanın cəlbi ilə bağlı tədbirlərin sürətləndirilməsi 2021-ci ilin büdcəsi üçün yeni çağırışlar kimi qəbul edilməlidir.

Hesablama Palatasının hesablamalarına əsasən, son iyirmi ildən artıq müddətdə özəlləşmədən daxilolmalar bir milyard manat məbləğindədir. Bu vəsaitin 30,0 faizi devalvasiyadan sonrakı üç ildə daxil olub. Həmçinin qeyd edim ki, ümumi daxilolmanın da 37,0 faizi torpaq sahələrinin satışından əldə edilib.

Hesab edirik ki, növbəti illərdə kəsirin maliyyələşdirilməsi üçün bu mənbədən daxilolmalar hər il üçün ən azı göstərilmiş məbləğdə olmalıdır. Növbəti ilin bu sahədə dönüşün ilk ili olacağını vurğulamaqla keçid dövrü üçün kəsirin maliyyələşdirilməsi məqsədilə digər mənbələrə, məsələn, əlavə borclanmaya müraciət edilə bilər.

Növbəti illərdə dövlət borcu üzrə risklər müəyyənləşdirilməli və mümkün təhdidlər konkretləşdirilməli, bununla bağlı strategiya tərtib edilməli və xərclərdə nəzərə alınmalıdır. Daxili mənbələr hesabına borclanmanın məhdud olması, xarici borclanma hesabına maliyyələşmənin artması ilə bağlı gözləntilər mövcuddur. Bu səbəbdən atılacaq bütün addımlar və icra ediləcək vəsaitlər risklərin minimallaşdırılması məqsədinə xidmət etməlidir. Əminəm ki, hökumət borclanmanı idarəolunan səviyyədə saxlayacaqdır.

Azərbaycan Prezidenti tərəfindən son müşavirələrdə dövlət xərclərinə nəzarət və dövlət maliyyəsinin hər bir manatının əsaslandırılması vacib tələb kimi müəyyən edilib. Bu tapşırıqların 2021-ci ilin dövlət büdcəsində birmənalı olaraq nəzərə alınması, büdcə şəffaflığı və hesabatlılığının yüksəldilməsi məqsədilə zəruri məlumat və sənədlərin sayının artırılması vacibdir.

Aydındır ki, növbəti ildə büdcə-vergi siyasətinin əsas istiqamətləri xüsusilə əhəmiyyətli məqsədlər üzərində formalaşmalıdır.

**- Vüqar müəllim, büdcə-vergi siyasəti hansı məqamları əks etdirməlidir?**

- İlk olaraq qeyd edək ki, büdcə-vergi siyasəti, başqa sözlə, dövlətin fiskal siyasəti dedikdə makroiqtisadi proseslərin tənzimlənməsi alətləri və metodları başa düşülür. İstənilən dövlətdə fiskal siyasətin əsas məqsədi iqtisadi sabitliyin əldə edilməsi və qorunmasıdır. Eyni zamanda, vurğulamaq lazımdır ki, iqtisadi sabitliyin şərtləri və şəraiti dövlətlər üzrə fərqlənir. Fərqliliyə baxmayaraq, fiskal siyasətin alətləri müəyyən edilmiş məqsədlərə nail olunması üçün maliyyə axınlarının idarəedilməsinə yönəlir. Ümumilikdə götürdükdə, istənilən ölkənin fiskal siyasəti iqtisadi artımın və məşğulluğun təmin olunması, inflyasiyanın məqbul sərhədlərdə qorunması məqsədinə xidmət edir.

Bu baxımdan növbəti ildə bu siyasətin əsas leytmotivi iqtisadi fəaliyyətin stimullaşdırılması ilə bağlıdır. Belə ki, məhz iqtisadi imkanlar sosial funksiyaların yerinə yetirilməsi imkanlarını formalaşdırır və dövlətin digər funksiyalarının icra edilməsinə şərait yaradır. İlk növbədə, vergi və gömrük potensialının reallaşdırılması və genişləndirilməsi məsələləri diqqətdə saxlanılmalı, inzibatçılığın gücləndirilməsi tədbirləri ön plana çıxmalıdır.

Fikrimizcə, cari ildə olduğu kimi, növbəti il üçün də kölgə iqtisadiyyatının azaldılması büdcə-vergi siyasətində əsas istiqamətlərdən biri kimi müəyyən edilməlidir. Lakin daha təkmil yanaşmanın tətbiqi ilə vergi gəlirlərinin potensialının hesablanmasında əsas meyarlardan olan "kölgə iqtisadiyyatı" və "vergi boşluğu" üzrə göstəricilər dünyadakı mövcud təkmil təcrübələrdən istifadə edilərək hesablanmalı, həmin göstəricilər üzrə konkret tədbirlər və hədəflər sənədlərdə əks olunmalıdır.

**- Qeyd etdiniz ki, 2021-ci ilin büdcəsi Orta Müddətli Xərclər Çərçivəsinin tam olmasa da, tətbiq edildiyi ilk büdcədir. Bu çərçivə barədə məlumat almaq, Hesablama Palatasının mövqeyini bilmək istərdik.**

- Məlum olduğu kimi, 2018-ci ildə "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası"nın təsdiq edilməsi haqqında Prezident fərmanının imzalanması ilə ölkəmizdə Orta Müddətli Xərclər Çərçivəsinin tətbiqinin hüquqi əsasları formalaşdırılıb. Həmin ilin sonunda "Azərbaycan Respublikasında büdcə təşkilatlarının sektor strateji planlarının hazırlanması Qaydası"nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin qərarı imzalanıb, Maliyyə Nazirliyi tərəfindən isə Orta Müddətli Xərclər Çərçivəsinin hazırlanması üzrə təfsilatlı təlimatlar hazırlanıb. Bu addımlar isə nəticə əsaslı büdcəyə keçid üzrə ilkin və mühüm baza sənədləri kimi qəbul olunmalıdır.

Hazırda 3 milli xərc prioriteti müəyyən edilib ki, bu sıraya təhsil, aqrar və ekoloji istiqamətlər aiddir. Bu istiqamətlərin tətbiqi 2021-ci ilin büdcə layihəsi çərçivəsində reallaşdırılsa da, növbəti 2022-ci ilin layihəsində beynəlxalq təcrübə nəzərə alınmaqla səhiyyə, elm və mədəniyyət, 2023-cü ildə nəqliyyat və rabitə kimi sahələrin də bu sıraya əlavə edilməsi tövsiyə olunur. Bu halda, bir məqama diqqət yetirmək lazımdır ki, hər növbəti ildə əlavə edilən 3 istiqamət əvvəl müəyyənləşdirilən 3 istiqamətə əlavə olunması, nəticədə getdikcə Orta Müddətli Xərclər Çərçivəsi və Nəticə əsaslı büdcənin (NƏB) prinsipləri büdcənin daha çox hissəsinə şamil edilməlidir. Beynəlxalq təcrübə göstərir ki, Orta Müddətli Xərclər Çərçivəsinin tam mənada 3-5 il ərzində tətbiqi yalnız dövlət maliyyə idarəetməsinin təkmil institusional bazası olan ölkələrdə mümkündür və ölkəmizdə hər iki institutun paralel və sinxron təkmilləşdirilməsi zəruridir.

Diqqətə çatdırım ki, Orta Müddətli Xərclər Çərçivəsinin tətbiqi ilə büdcə proseslərinin zamanla yuxarıdan aşağı və aşağıdan yuxarı prinsiplərinin qarşılıqlı əlaqəsi üzərində qurulacağını nəzərdə tutur. Başqa sözlə, bu iki prinsipin tətbiqi büdcənin tərtibi və icrası fəlsəfəsini dəyişəcəkdir. Həmin çərçivə nəticə əsaslı büdcəyə keçidin ilkin mərhələsidir və bu istiqamətdə reallaşdırdığımız səmərəlilik (performans) auditi vacib tələbdir. Qeyd edim ki, səmərəlilik (performans) audit növü Dövlət Xərcləri və Maliyyə Hesabatlılığı (DXMH - PEFA) diaqnostik alətinin metodologiyasında da əsas şərtlərdən biridir. Eyni zamanda, performans audit performans büdcənin, başqa sözlə, nəticə əsaslı büdcənin auditi üçün əsasdır.

Səmərəlilik, nəticəlilik və qənaətlilik meyarlarına köklənən fəaliyyət göstəricilərinin tətbiqi və hazırkı təcrübənin mütləq şəkildə genişləndirilməsi lazımdır. Hər bir istiqamət üzrə göstəricilər sisteminin qurulması zəruridir. Hazırda Maliyyə Nazirliyi tərəfindən tərtib edilən təlimatda yalnız bir neçə istiqamət üzrə nümunə kimi təqdim olunan bəzi göstəricilər sistemi mövcuddur. Bir məqam qeyd edilməlidir ki, Orta Müddətli Xərclər Çərçivəsinin tətbiqi və müvəffəqiyyəti qurumların bu sistemə hazırlıq dərəcəsindən, yeni yanaşmanın tətbiqində bacarıq və vərdişlərindən asılıdır.

Ümumiləşmə apararaq qeyd edək ki, bu çərçivə vəsaitlərin müəyyən olunmuş məqsədlərlə uzlaşmasını təmin etməyi nəzərdə tutur. Başqa sözlə, dövlət vəsaitlərinin daha nəticəli, qənaətli və səmərəli istifadəsinə xidmət edən OMXÇ və NƏB ölkənin əsas strateji məqsədlərinə nail olunması üçün ayrı-ayrı qurum və ya sahələrin fəaliyyətinin əlaqələndirilməsini təmin etməlidir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan MDB ölkələrinə məhsul ixracını artırıb

Cari ilin yanvar-iyul aylarında Azərbaycandan MDB ölkələrinə 809 milyon 899 min dollarlıq məhsul ixrac edilib.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu göstərici 2019-cu ilin müvafiq dövrünə nisbətən 60,8 milyon dollar çoxdur.

Cari ilin 7 ayında Azərbaycanın MDB ölkələrindən idxal etdiyi məhsulların dəyəri isə 1 milyard 529 milyon 876 min dollar olub.

## "Sosial Bağlar" layihəsində iştirak edənlərə kömək olunur

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin birgə həyata keçirdiyi "Sosial Bağlar" layihəsinə cəlb olunan iştirakçılar üçün bir sıra dəstək tədbirləri həyata keçirilir.

İlk olaraq iştirakçıların və onlar üçün yaradılacaq bağçılıq təsərrüfatının növünün seçimi aparılır, iştirakçılar üçün biznesə başlama və biznesin idarə edilməsinə dair təlimlər keçirilir.

Növbəti mərhələdə torpaq sahələri əkin üçün hazır vəziyyətə gətirilir, ərazi köhnə ağaclardan, kollardan, daşlardan təmizlənir və tinglər əkilir. Ərazi hasara alınır, elektrik xətləri çəkilir və damla suvarma sistemi quraşdırılır. Həmçinin bağlarda mütəmadi monitorinq keçirilərək mövcud vəziyyət qiymətləndirilir. İştirakçılar gübrə və dərman vasitələri ilə təmin edilir, onlara lazımi aqrotexniki və digər məsləhət xidmətləri göstərilir. Qurumuş və inkişafdan qalmış tinglər yeniləri ilə əvəz edilir, iştirakçıların avadanlıqlara olan əlavə ehtiyacları da təmin olunur.

Məlumat üçün bildirək ki, 2018-ci ildən reallaşdırılan layihə çərçivəsində 375 ailə üçün bağ salınıb. Cari ildə 16 rayon üzrə 250 aztəminatlı ailə üçün intensiz meyvə bağlarının yaradılması da nəzərdə tutulur. Hazırda layihəyə müraciətlərin həmin rayonlar üzrə Ərazi Məşğulluq Mərkəzləri tərəfindən qeydiyyatı davam edir. Son müraciət tarixi sentyabrın 1-dir.

## Bu il özünüməşğulluq proqramına cəlb edilənlərin sayı 5100-ə çatıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramına cəlb edilənlərin sayı 5100-ə çatıb.

Nazirliyin yaydığı məlumata görə, onlardan 970 nəfəri əlilliyi olan şəxslər, 659 nəfəri məcburi köçkünlər, 87 nəfəri şəhid ailəsi üzvləri, 78 nəfəri cəzaçəkmə müəssisəsindən azad olunanlar, 57 nəfəri isə ünvanlı sosial yardım alan şəxslərdir.

Ozünüməşğulluq proqramına cəlb olunan şəxslərə pandemiya dövrü ilə əlaqədar təlimlərə cəlb edilmədən aktivlər veriləcək. Lakin onların təlimlərdən faydalanmaları xüsusi karantin rejimi bitdikdən sonra təmin ediləcək.

Sonda o da qeyd olunur ki, cari il ərzində 12 min işsiz şəxsin proqrama cəlb edilməsi işləri aparılır.

## Azərbaycanın elektrik enerjisi sisteminin inkişafı bugünün və sabahın tələblərinə hesablanıb

### Yeni Günəş və külək stansiyaları bu sistemin gücünü daha da artıracaq



Əvvəli 1-ci səh.

Azərbaycan da məhz Günəşi bol olan diyardır. Ərazimizin böyük bir hissəsi dəniz sahilində yerləşdiyindən, necə deyərlər, küləyimiz də boldur. Bu səbəbdən də ölkənin bir sıra yerlərində bərpaolunan enerji stansiyalarının inşa edilməsi haqlı olaraq gündəmə gəlib. Bu geniş imkanları nəzərə alaraq Prezident İlham Əliyev bərpaolunan enerji mənbələrindən istifadəni energetika sahəsinin inkişafının prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib.

Dövlət başçısının keçən il dekabrın 5-də imzaladığı "Bərpaolunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" sərəncamı da bu məqsədə xidmət edir. Bu il yanvarın 9-da isə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri ilə bir külək və bir Günəş stansiyasının tikintisi üçün müqavilələr imzalanıb. Külək stansiyası 240 meqavat, Günəş stansiyası 200 meqavat gücündə olacaq. Bu stansiyaların tikintisi ilə bağlı pilot layihələrin icrası Prezidentin diqqət mərkəzindədir.

İki stansiyanın istehsal gücü 440 meqavat təşkil edəcək. Bunlar regionda ən böyük Günəş və külək elektrik stansiyaları olacaq.

Stansiyaların tikintisinə vəsait investorlar tərəfindən qoyulacaq. Təqdirəlayiq haldır ki, onlar COVID-19-la bağlı dünyada müşahidə olunan mürəkkəb şəraitə baxmayaraq, imzalanmış sənədlərə sadiq qaldıqlarını bildirirlər. Bu da Azərbaycan dövlətinə, Prezident İlham Əliyevə bəslənən inam və etimadın daha bir göstəricisidir.

"Qobu" enerji layihəsi ilə bağlı sözügedən tədbirdəki çıxışında dövlət başçısı bu barədə demişdir: "Sevindirici hal ondan ibarətdir ki, bu gün dünyanın ən böyük enerji şirkətləri Azərbaycanda bərpaolunan enerji növlərinin istehsalına maraq göstərir və artıq bu maraq reallaşır. İlin əvvəlində iki böyük beynəlxalq şirkətlə 440 meqavat generasiya gücü olan Günəş və külək elektrik stansiyalarının tikintisi ilə əlaqədar müvafiq sənədlər imzalanmışdır. Ümid edirəm ki, ilin sonuna qədər bütün sənədlərin imzalanması başa çatacaq və stansiyaların tikintisinə start veriləcək. Azərbaycanda 440 meqavat gücündə bərpaolunan enerji növlərinin yaradılması, özü də Azərbaycan dövləti tərəfindən bir manat vəsait qoyulmadan reallaşdırılması bizə olan inamın təzahürüdür, həmçinin Azərbaycanın sabit gələcəyinə, inkişafına olan inamın təzahürüdür".

Qeyd edək ki, hazırda Azərbaycanın enerji balansında bərpaolunan enerjinin payı təqribən 17-18 faizdir. Uzunmüddətli strategiyaya görə, bu, ən azı 30 faizə çatdırılmalıdır. Həmin məqsədlə ölkəmiz xarici investorların iştirakı olmadan da bir sıra layihələr həyata keçirib. Məsələn, 50 meqavatlıq stansiya inşa edilib. 84 meqavatlıq daha bir stansiyanın tikintisi nəzərdə tutulur.

Mütəxəssislərin fikrincə, ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün olan bərpaolunan enerji mənbələrinin potensialı 26 min 940 meqavat, o cümlədən külək enerjisi üzrə 3000, Günəş enerjisi üzrə 23 min 40, bioenerji potensialı 380, dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir.

Bunlara əsaslanaraq hazırda Energetika Nazirliyi bərpaolunan enerji ilə bağlı dünyanın bir neçə böyük şirkəti ilə danışıqlar aparır. Bu şirkətlərin yeni Günəş və külək stansiyalarının tikintisinə sərmayə qoyacaqlarına inam var.

Bütün bunlar Azərbaycanda enerji sahəsinin hərtərəfli inkişafının təkcə bugünün deyil, həm də sabahın tələblərinə hesablandığını göstərir. Belə ki, ölkədə əhali çoxalır, sənaye sektoru genişlənir, istehlak artır. Ona görə də dövlət başçısı müxtəlif mənbələrdən güc alan yeni enerji obyektlərinin tikintisini və mövcud olanların istismar müddətinin uzadılmasını daim gündəmdə qalan vəzifə kimi qarşıya qoyur.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## İkitərəfli əməkdaşlıq əlaqələrinə dair fikir mübadiləsi aparılıb

Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimovla İranın Kooperativlər, Əmək və Sosial Rifah nazirinin müavini Ahmad Meydarinin onlayn formatda görüşü olub.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin keçirdiyi görüşlərin, qarşılıqlı rəsmi səfərlərin ölkələrimiz arasında əlaqələrin inkişafına mühüm töhfələr verdiyi vurğulanıb.

A.Kərimov ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial sahədə aparılan islahatlar, əldə olunan innovativ nailiyyətlər barədə məlumat verib. O, pandemiya dövründə Azərbaycanda reallaşdırılan genişmiqiyaslı iqtisadi və sosial dəstək tədbirlərini qeyd edib. Nazir müavini əmək bazarı ilə bağlı islahatları, sosial müdafiə və aktiv məşğulluq proqramlarının genişləndirildiyini diqqətə çatdırıb.

A.Meydari ölkəsində əmək, məşğulluq və sosial müdafiə sahəsində aparılan işlərdən, islahat tədbirlərindən bəhs edib.

Görüşdə nazirliklər arasında imzalanmış Anlaşma Memorandumu çərçivəsində əməkdaşlıq təcrübəsinin, təcrübə mübadilələrinin əhəmiyyəti vurğulanıb. İslam Əməkdaşlıq Təşkilatının Bakıda yaradılacaq Əmək Mərkəzinin təşkilata üzv ölkələr arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində əməkdaşlığın inkişafına xidmət edəcəyi qeyd olunub, ikitərəfli əməkdaşlıq əlaqələrinə dair fikir mübadiləsi aparılıb.

## Növbəti aksiya Xaçmaz və Masallıda keçirilib

İqtisadiyyat Nazirliyinin təşəbbüsü, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının və özəl sektorun dəstəyi ilə vətəndaşların koronavirus infeksiyasının profilaktikasına dair maarifləndirilməsi tədbirlərinə dəstək məqsədilə sosial aksiyalar davam edir.



Növbəti maarifləndirmə aksiyası Xaçmaz və Masallı rayonlarında təşkil olunub. Aksiya zamanı "KOB Dostu" və könüllülər tərəfindən ticarət və xidmət obyektlərinə yaxın yerlərdə, parklarda vətəndaşlarla karantin rejimi qaydalarına dair maarifləndirici söhbətlər aparılıb, onlara tibbi maska paylanılıb.

Dövlət-biznes əməkdaşlığı çərçivəsində həyata keçirilən maarifləndirmə aksiyası iyul ayından başlayıb və 20-yə yaxın şəhər və rayonu əhatə edəcəyi nəzərdə tutulub. Qarşıdakı günlərdə aksiyanın Salyan, Quba, Qusar, Ağdaş, Şəki, Şamaxı, Gəncə, Naftalan və Ağcabədidə təşkil olunacağı planlaşdırılır.

Qeyd edək ki, indiyədək maarifləndirici aksiya ölkənin 11 şəhər və rayonunda təşkil olunub və aksiya çərçivəsində vətəndaşlara ümumilikdə 15 min 700-ə yaxın tibbi maska paylanılıb.

## AFAQ layihəsi çərçivəsində qadın fermerlərə dəstək verilir

Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən həyata keçirilən, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və "PAŞA Holding" tərəfindən dəstəklənən Aqrar Fəaliyyətli Azərbaycan Qadınları (AFAQ) layihəsi çərçivəsində qadın fermerlərlə növbəti görüş İsmayıllı rayonunun Sumağallı kəndində keçirilib.



Görüşdə rayon icra hakimiyyətinin rəhbərliyi, "Aqrar Tədarük və Təchizat" ASC-nin və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının nümayəndələri, İsmayıllı Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) direktoru, Sumağallı kəndində fəaliyyət göstərən və layihə çərçivəsində keçirilən təlimləri uğurla tamamlayan qadın fermerlər iştirak ediblər.

Görüş zamanı qadın fermerlərin təsərrüfatlarına baxış keçirilib, təsərrüfat sahiblərinə ehtiyaclarına uyğun olaraq müvafiq avadanlıqlar (inkubator, medaqon, südsağan aparat, seperator, yem üyüdən aparat və s.) verilib.

Qeyd edək ki, layihəyə ilkin mərhələdə 500-ə yaxın qadın fermer müraciət edib, onlardan 72 fermerin təsərrüfatına baxış keçirilərək qiymətləndirmə aparılıb. Yerli və xarici mütəxəssislər tərəfindən keçirilən təlim və məsləhət dəstəyindən bu günə qədər 300-ə yaxın qadın fermer faydalanıb. Layihənin şərtlərinə uyğun gələn təsərrüfat sahiblərinə göstərilən texniki, məsləhət və təlim dəstəyi bundan sonra da davam etdiriləcək.

Xatırladaq ki, AFAQ layihəsi aqrar sahədə fəaliyyət göstərən qadınların dəstəklənməsi, onların bilik və bacarıqlarının artırılması, maliyyə və digər resurslara çıxışlarının asanlaşdırılması məqsədi ilə icra olunur. Bundan əvvəl Şamaxı rayonunun Məlikçobanlı kəndindən olan 3 qadın fermer layihənin dəstəyindən faydalanıb. Onlara xırdabuynuzlu və iribuynuzlu heyvanlar verilib.

## Xaçmaz KOB evində 10 mininci xidmət göstərilib



Sahibkarlara dövlət-biznes ("G2B") və zəruri biznes-biznes ("B2B") xidmətlərinin vahid məkanda təqdim olunduğu Xaçmaz KOB evi tərəfindən 10 mininci xidmət göstərilib.

10 mininci müraciət mənşə sertifikatı almaq üçün KOB evinə müraciət etmiş sahibkara hazır sənədin verilməsi ilə bağlı olub.

Qeyd edək ki, Xaçmaz KOB evində sahibkarlara İqtisadiyyat Nazirliyi və onun qurumları - Dövlət Vergi Xidməti, Əmlak Məsələləri Dövlət Xidməti, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Sahibkarlığın İnkişafı Fondu, AZPROMO, həmçinin Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Gömrük Komitəsi, Qida Təhlükəsizliyi Agentliyi, Dövlət Reklam Agentliyi, "Azərpoçt" MMC, "Azəriqaz" İB, "Azərsu" ASC, "Azərişıq" ASC və digər qurumlar tərəfindən 150-yə yaxın dövlət xidməti göstərilir. KOB evində həmçinin sahibkarlıq subyektlərinə bank, sığorta, lizinq, broker, tərcümə və s. kimi 100-dək zəruri biznes-biznes xidmətləri təqdim olunur.

Xaçmaz KOB evinin əsas üstünlüyü bura müraciət edən sahibkarların vaxta və əməliyyat xərclərinə qənaət etməsi, xidmətlərin şəffaf və operativ təşkili, dövlət-biznes və biznes-biznes xidmətlərinin bir məkanda göstərilməsi, xidmət səviyyəsinin ölçüləbilən olmasıdır. KOB evində sahibkarlara göstərilən xidmətlərdən məmnunluq səviyyəsi 97 faiz təşkil edir.

Koronavirus (COVID-19) pandemiyası ilə bağlı Xaçmaz KOB evində sahibkarlara xidmətlərin göstərilməsi zamanı karantin rejiminin tələblərinə tam riayət olunur.

## "Silk Way West" "ACL Airshop" şirkəti ilə uzunmüddətli strateji tərəfdaşlığı davam etdirir

"Silk Way West" aviaşirkəti hava yük daşımaları sahəsində logistika xidmətləri göstərən "ACL Airshop" şirkəti ilə uzunmüddətli strateji əməkdaşlığını davam etdirir. "Silk Way Group" şirkətlər qrupunun bir hissəsi olan "Silk Way West" karqo sənayesində göstərilən xidmətlər üzrə dünya lideri olan "ACL Airshop" ilə beşillik ULD (Unit Load Device) razılaşmasının yeniləndiyini təsdiqləyib.



AZƏRTAC bildirir ki, "ACL Airshop" dünyanın 6 qitəsində yerləşən 50-dən çox hava limanında 200-ə yaxın aparıcı aviaşirkətə xidmət göstərən yüksək texnologiyalardan istifadə edən bir logistika şirkətidir.

Şirkətin təkliflərinin unikal cəhətlərindən biri aviaşirkətlərin yükdaşıma tələblərinə cavab vermək üçün qısamüddətli icarə və lizinq həlləridir. "ACL Airshop" şirkəti məhz xüsusi ULD həllərinin təklifləri sahəsində dünyada güclü nüfuz qazanıb. Onu da qeyd etmək lazımdır ki, ULD qablaşdırma, yəni hava yüklərinin formalaşma və bərkitmə vasitəsidir. Yüklərin hava nəqliyyatı ilə konteynerlərdə və ya paletlərdə daşınması onların yük təyyarəsinə yüklənməsi prosesini sürətləndirib, hava vasitəsinin yükdaşıma həcminə nəzarətini təmin edib.

Qablaşdırma vasitələrinin çatdırılması üçün hava yüklərini müşayiət etməklə yanaşı, tərəflərin imzaladığı sazişdə daha sürətli xidmət, daha rahat logistika balanslaşdırılması, xərclərə əhəmiyyətli dərəcədə qənaət etməyi təmin edən innovativ həllər və ən müasir texnologiyaların tətbiqi ilə logistikanın idarə edilməsinə aid olan bənd də mövcuddur.

Əhəmiyyətli bir məqam odur ki, "Silk Way Group" şirkətlər qrupu ilə "ACL Airshop" əməkdaşlığının uzunmüddətli tarixi var. "Silk Way Group"un müxtəlif strukturları 10 ildən çoxdur ki, strateji tərəfdaşlıq çərçivəsində "ACL Airshop" ilə yaxından səmərəli əməkdaşlıq edir. "Silk Way West" və "ACL Airshop" real vaxtda ULD izləmə üçün "bluetooth" yeniliklərinin tətbiqi ilə şirkət donanmasının logistika səmərəliliyini əhəmiyyətli dərəcədə yaxşılaşdırılması məqsədilə əməkdaşlıq edirlər. Bütün bunlar Amsterdam şəhərində (Niderland) yerləşən "ACL" şirkətinin qlobal əməliyyat, ümumşəbəkə ULD idarəetmə proqramları və innovativ "FindMyULD" mobil tətbiqin fəaliyyətləri ilə birlikdə hava yük daşımalarının daha yüksək istifadə səviyyəsini və maksimal iqtisadi səmərəliliyini təmin edir.

"Biz əlverişli və çevik iş strategiyasına sadiqik. ULD logistikasının daim təkmilləşdirilməsi strateji prioritetlərimizdən biridir. Bu, birbaşa aviaşirkətin qazancına təsir göstərir. "ACL Airshop" ilə əməkdaşlıq bütün donanmanın səmərəliliyini artıraraq qənaət etmə imkanı yaradıb. Təqdim etdiyi texnoloji yeniliklərin və xidmət modelinin inkişafı sayəsində "ACL Airshop" bizim strateji tərəfdaşımıza çevrilib. Bu əməkdaşlıq həm müştərilərimiz, həm də bizim üçün olduqca səmərəlidir", - deyə "Silk Way West"in beynəlxalq yük əməliyyatları üzrə vitse-prezidenti Emil Xasanşin qeyd edib.

"Silk Way Group" ilə uzunmüddətli tərəfdaşlığımızı yüksək qiymətləndiririk. Biz "Silk Way West" üçün effektiv, səmərəli və çevik həllərimizi təklif edib, həyata keçirməyə davam etməkdən qürur duyuruq", - deyə "ACL Airshop"un Avropa, Yaxın Şərq və Afrika bölgəsi üzrə meneceri Maurice van Terheijden bildirib. "ACL Airshop" şirkətinin sədri və baş direktoru Steve Tovnes isə vurğulayıb: "Biz "Silk Way West"in COVID-19 virusunun yaratdığı pandemiyaya qarşı ümumdünya müqavimətində aktivliyinin artmasını alqışlayırıq".

Bir daha bildirək ki, "Silk Way Group" dinamik şəkildə inkişaf edən və Azərbaycan iqtisadiyyatında qabaqcıl yerlərdən birini tutan şirkətlər qrupudur. 2006-cı il iyulun 14-də hava yük daşımalarının həyata keçirilməsi ilə məşğul olan şirkətlərin idarə edilməsi məqsədilə yaradılmış "Silk Way Group" Heydər Əliyev Beynəlxalq Aeroportunun ərazisində yerləşir. Hazırda şirkətlər qrupu hava yük daşımalarının icrası və təyyarələrin uçuş qabiliyyətini təmin edən üç şirkətdən ibarətdir: "Silk Way Airlines", "Silk Way West" və "Silk Way Technics".

Xatırladaq ki, "Silk Way West" şirkətinin əsası 2012-ci ildə qoyulub, hazırda hər ay Avropa, Asiya, Şimali və Cənubi Amerika ölkələrinə 50-dən artıq istiqamətdə 250-dən çox müntəzəm və çarter reyslərini həyata keçirir. Şirkətin aviaparkı ən qabaqcıl təhlükəsizlik sistemləri ilə təchiz olunmuş 12 "Boeing 747-400F" və "Boeing 747-8F" təyyarələrindən ibarətdir. "Boeing" aviakonserninin məlumatına əsasən, 2016-cı ildə "Silk Way West" donanma böyüməsi dinamikası, uçuş coğrafiyasının genişlənməsi və daşınan yüklərin həcmi kimi meyarlara görə sürətlə böyüyən aviadaşıyıcı kimi tanınıb. Bu gün bütün bu meyarlara görə aviaşirkət Avropada üçüncü yerdədir.

## Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı Körfəz ölkələri

**Yanvar-iyul aylarında Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı Körfəz ölkələri sırasında ilk üçlükdə İran, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Səudiyyə Ərəbistanı qərarlaşıb.**

Dövlət Gömrük Komitəsinin məlumatına görə, hesabat dövründə ölkəmizin İranla ticarət dövriyyəsinin dəyəri 179,2 milyon, BƏƏ ilə 22,6 milyon, Səudiyyə Ərəbistanı ilə 7,1 milyon dollar olub. İran və BƏƏ ilə ticarət dövriyyəsi 2019-cu ilin müvafiq dövrünə nisbətən azalıb, Səudiyyə Ərəbistanı ilə artıb.

Bu ölkələr eyni zamanda Azərbaycanın ən çox məhsul idxal etdiyi Körfəz ölkələri sırasında ilk üçlükdədir. İrandan idxalın dəyəri 158,4 milyon, BƏƏ-dən 16,2 milyon, Səudiyyə Ərəbistanından isə 6 milyon dollar təşkil edib. Bu ölkələr ilə keçən ilin eyni dövrünə nisbətən idxal əməliyyatları azalıb.

# Ermənilərin uydurduğu yalanlar onların təcavüzkar siyasətinin daha bir təsdiqidir

Bu il iyulun 12-də erməni silahlı qüvvələri Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində mövqelərimizə artilleriya atəşi ilə zərbə vurmuşlar. Görülmüş operativ tədbirlər nəticəsində Ermənistan ordusu layiqli cavab almışdır. Bununla belə, erməni vandalları növbəti dəfə də öz bəd əməllərini davam etdirmək istəmişlər. Təbii ki, daha tutarlı zərbə almışlar. Yəni ermənilərin sərhəd boyu yerləşən dayaq məntəqələri darmadağın edilmişdir, onlarla hərbçisi öldürülmüşdür. Qəhrəmanlarımızın qisası alınmışdır.

Azərbaycan oğulları - əsgərindən ta generalınadək əsl vətənpərvərlik nümunəsi göstərmişlər. Onların arasında şəhidlik zirvəsinə yüksələnlər də olmuşdur.

Hərbçilərimizin sücaəti xalqımız tərəfindən dərin ehtiram hissilə qarşılanmışdır. Vətən, torpaq uğrunda canından keçən şəhidlərimizin hər biri son mənzilə böyük izdihamın müşayiətilə yola salınmışdır.

Həmin günlərdə ordumuzun gücü bir daha özünü göstərmiş, Azərbaycan xalqının öz Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşdiyi bir daha aydın nümayiş etdirilmişdir.

İyulun 13-də dövlət başçısı Təhlükəsizlik Şurasının iclasını keçirmiş və çıxış edərək erməni vandalizminin növbəti təxribatını dünya ictimaiyyətinə çatdırmışdır. Bildirmişdir ki, bütün məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyi daşıyır: "Məhz Ermənistan rəhbərliyinin ikiüzlü və riyakar fəaliyyətinə görə belə hadisələr baş verir. Bir tərəfdən, beynəlxalq ictimaiyyətə müraciət edir və Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində atəşkəs rejiminin möhkəmləndirilməsi üçün kömək xahiş edir. Digər tərəfdən, hərbi təxribatlar törədərək Azərbaycan ərazisinə basqın etmək istəyir, mövqelərimizi zəbt etmək istəyir, mülki əhalini, kəndlərimizi atəşə tutur. Bu çirkin və məkrli siyasət Ermənistanı uçuruma aparacaq".

Ermənistanın daxilində böhranlı vəziyyət yaşanır, çaxnaşmalar getdikcə çoxalır, hökuməti və əhalini daha dərin uçurumlara yuvarladır. Artıq orada adamlar da başa düşüblər ki, Ermənistan rəhbərliyinin onlara verdiyi vədlər boş söz imiş. Rəhbərlik isə öz yalanlarını ört-basdır etmək üçün camaatın diqqətini başqa səmtlərə cəlb etməyə çalışır. O cümlədən əhali arasında belə bir rəy formalaşdırmağa cəhd göstərir ki, guya Azərbaycan Ermənistanın ərazisinə hücumlar edir. Əlbəttə, bu, ağ yalandır və dünya ictimaiyyətini belə uydurmalara inandırmaq mümkün deyil. Ermənistan rəhbərliyi bunu görərək daha çox dəridən-qabıqdan çıxır, daha çox saxta məlumat yayır. Elə iyul ayında Tovuz istiqamətində törətdiyi təxribatlar da Azərbaycan tərəfinin üstünə yıxmaq cəhdləri buna aydın misaldır.

Ermənistan beynəlxalq arenada öz dayaqlarını getdikcə daha çox itirir. Ona görə də ölkəmizin nailiyyətlərini, dünyada qazandığı nüfuzu gözü götürmür. Xüsusilə Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində uğurlu fəaliyyəti, son vaxtlar aparıcı nüfuzlu təşkilatlar tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verilmiş açıqlamalar, qəbul edilmiş qərarlar, ölkəmizin ərazi bütövlüyünün dəstəklənməsi işğalçı ölkəyə ciddi zərbələr vurmuşdur.

Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev mötəbər kürsülərdən müntəzəm olaraq həm münaqişənin tarixini, həm də Qarabağın, ümumiyyətlə, xalqımızın tarixini konkret faktlarla əsaslandırır və bununla erməni təbliğatını alt-üst edir. Artıq bütün dünya bilir ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, Azərbaycanın ayrılmaz hissəsidir.

İyulun 15-də Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident demişdir: "Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. Mən hesab edirəm ki, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. Necə ki, 2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik. İki il bundan əvvəl - 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürüldü və işğalçılar o bölgələrdən qovuldu. Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu bizim nəzarətimizdədir. Vaxtilə - 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu əməliyyat - son günlər ərzində baş vermiş hərbi toqquşma bizim növbəti şanlı qələbəmizdir".

Sosial-iqtisadi həyatı böhran vəziyyətində olan, döyüş meydanında acizliyi təsdiqlənən, yalanlarına inanılmayan Ermənistan indi daha bir təxribat növünə əl atmağa cəhd edir. İnformasiya məkanında təxribatlar törətməyə can atır. Lakin əbəs yerə! Beynəlxalq ictimaiyyəti heç bir uydurma və yalanla çaşdırmaq mümkün deyil! Ermənilərin informasiya təxribatları törətmək istəkləri isə onların növbəti çirkin əməli, təcavüzkar siyasətinin daha bir təzahürüdür.

***Kəmalə ŞÜKÜROVA,***
***Qax rayon Qeydiyyat şöbəsinin rəisi***

# *Ehtiyatda olan zabit:* "Ordumuzun qətiyyətli zərbələri nəticəsində düşmən hər dəfə ağır itkilər verərək geri çəkilməyə məcbur ediləcək"

Ermənistan hakimiyyəti 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin utancverici məğlubiyyətindən sonra erməni xalqı arasında hakimiyyətin və ordunun tapdalanmış nüfuzunun bərpası üçün "əlindən gələni" etməyə çalışır.

Bunu ehtiyatda olan zabit Yunis Eldaroğlu AZƏRTAC-a açıqlamasında deyib.

Zabit bildirib ki, belə cəhdlərdən biri də iyulda Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş vermiş döyüş toqquşmasında özünü büruzə verdi. Lakin ermənilər bu dəfə də gözlədikləri nəticəni nəinki əldə edə bilmədilər, hətta daha böyük utanc hissi yaşamağa məcbur oldular. Necə deyərlər, bu dəfə onlar qaş düzəltmək istədikləri yerdə, göz çıxardılar.

Ordularının ardıcıl olaraq biabırçı məğlubiyyətə uğraması erməni xalqının haqlı narazılığına səbəb oldu. Bataqlıqda çabalayan Ermənistan ordusu "saman çöpündən yapışmaq" misalında olduğu kimi, bu dəfə avqustun 23-də kəşfiyyat-diversiya qrupundan istifadə edərək erməni xislətinə xas bir şəkildə növbəti təxribata cəhd etdi. Amma Azərbaycan Ordusunun bölmələri sayıqlığı ilə "sən saydığını say, gör fələk nə sayır" məsəlini ermənilərə ustalıqla xatırlatmış oldu.

Hər dəfə uğursuzluqlarını ört-basdır etməyə çalışan Ermənistan rəhbərliyi hakimiyyətə qarşı çıxan narazı erməni əhalisinin etirazlarını daha da artırmamaq, başqa sözlə, odun üstünə benzin tökməmək məqsədilə bu məsələyə də don geyindirmək məcburiyyətində qaldı. Reallığı gizlətmək üçün xalqının gözündən pərdə asaraq yalan bəyanatlar yaymaq üzrə "mütəxəssis" olan düşmən, yenə sevimli peşəsinə - yalan və uydurma izahatlara əl atdı. Belə ki, avqustun 23-də təxribat törətməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupunun komandiri baş leytenant Qurgen Alaverdyanın guya yolu azaraq Azərbaycan tərəfinə keçməsi barədə məlumat yayıldı.

Əslində bunun özü belə utancverici hadisədir. Bir ordunun zabiti uzun müddət xidmət etdiyi postda azarsa, o ordunun əsgər, çavuş və gizirlərindən nə gözləmək olar?! Amma indiki vəziyyətdə erməni hakimiyyətinin başqa bir bəhanə uydurma şansı yox idi. Üzərində silah-sursat, əynində hərbi forma olan birinə bu dəfə çoban damğası vurula bilməzdi.

"Ermənistan hakimiyyəti gələcəkdə yeni bəhanələr uydurmağa məcbur qalmamaq üçün hərbçilərini öz "yuvalarında" oturtmalıdır. Düşmən bilməlidir ki, günbəgün güclənən, peşəkar kadr və müasir silahlarla komplektləşdirilmiş Azərbaycan Ordusu hər an öz xidmətini ayıq-sayıq yerinə yetirir və döyüş növbətçiliyi aparır. Düşmənin döyüş tapşırığını yerinə yetirən hərbçilərimizin dayandıqları səngərlərimizdən nəinki keçməyə, oraya heç yaxınlaşmağa belə şansı yoxdur. Bununla yanaşı, əgər işğalçı ordunun hərbi qulluqçuları əsgərlərimizin gücünü bir daha da sınamaq və bu gücün təsirini öz üzərində hiss etmək istəyirsə, yenə də cəhd edə bilərlər. Amma düşmən anlamalıdır ki, bu dəfə də onların kəşfiyyat-diversiya qruplarının aqibəti əvvəlkilərdən fərqli olmayacaq. Yenə də bölmələrimizin qətiyyətli addımları və adekvat tədbirləri nəticəsində düşmən itkilərə məruz qalaraq geri çəkilməyə məcbur ediləcək", - deyə zabit qeyd edib.

# Beynəlxalq aləm

## Avstraliyalı terrorçu ömürlük həbs cəzası aldı



Yeni Zelandiyanın Kraystçerç şəhərindəki məscidlərdə qırğın törətmiş avstraliyalı Brenton Tarrant ömürlük həbs cəzasına məhkum edilib. O, Ali Məhkəmənin hakimi Kemeron Manderin qərarına əsasən 51 nəfərin öldürülməsində və 40 nəfərin həyatına sui-qəsd edilməsində, eləcə də terrorizmdə təqsirli bilinib. Məhkəmə ona vaxtından əvvəl azadlığa buraxılma hüququ verməyib.

Hakim müttəhimə bildirib ki, o, mərhəmət göstərməyib, deməli, sadəcə qatil deyil - o, Yeni Zelandiyada həyat tərzinə hücum edən terrorçudur.

Ağ irqin üstünlüyünü müdafiə edən ifrat sağçı terrorçu əvvəllər ona qarşı irəli sürülmüş bütün ittihamları qəbul edib.

Brenton Tarrant ötən il martın 15-də Yeni Zelandiyanın Kraystçerc şəhərində "Nur" və "Linvud" məscidlərinə silahlı basqın edilmişdir.

Yeni Zelandiyanın Baş naziri Casinda Ardern hücumu terror aktı kimi qiymətləndirmişdir.

## Almaniyada karantin tədbirlərinə qarşı aksiyalar qadağan olundu




Almaniyada yeni tipli koronavirus infeksiyasının (COVID-19) pandemiyası ilə bağlı avqustun 29-da Berlində karantin tədbirlərinə qarşı etiraz aksiyalarının keçirilməsi qadağan edilib.

Səbəb kimi regionda koronavirus infeksiyasının daha da yayılmasının qarşısının alınmasının vacibliyi göstərilib.

DİN avqustun 1-də keçirilmiş etiraz aksiyaları zamanı nümayişçilərin sosial məsafə tələblərinə və koronavirus infeksiyasına dair digər tədbirlərə açıq şəkildə məhəl qoymadıqlarını xatırladıb.

Berlinin Daxili İşlər məsələləri üzrə senatoru Andreas Qeyzel qadağanın toplaşma azadlığı hüququnu pozmaq məqsədi daşımadığını, Berlin sakinlərinin və qonaqlarının sağlamlığının qorunmasına yönəldiyini vurğulayıb. Xəbərdarlıq edib ki, asayiş keşikçiləri icazəsiz etiraz aksiyalarının iştirakçılarına qarşı qətiyyətli mövqe tutacaqlar.

## Nigeriyada oğurlanmış ruslar azad edildi



Nigeriyada "Kürasao Treyder" gəmisindən oğurlanan yeddi rusiyalı dənizçi azad edilib. Rusiya XİN-dən verilən məlumata görə, bu barədə RF-nin Abucadakı səfirliyinin diplomatları, Nigeriya rəsmi hakimiyyəti və gəmi sahibinin nümayəndələri razılığa gəliblər.

Hazırda dənizçilər Port Harkort şəhərində Nigeriya Hərbi Dəniz Qüvvələrinin Port Harkort şəhərindəki regional qərargahında qənaətbəxş vəziyyətdədir.

Rusiyalı dənizçilər iyulun 17-də Qvineya körfəzində soyğunçuluq hücumu zamanı oğurlanmışdılar.

## Aİ komissarı və irlandiyalı nazir koronavirus rejimini pozduqlarına görə istefa verdilər



Avropa İttifaqının (Aİ) ticarət komissarı Fil Hoqan İrlandiyada mövcud olan koronavirus məhdudiyyətlərini pozduqdan sonra istefa verib.

KİV-in məlumatına görə, o, 80-ə yaxın qonağın iştirak etdiyi qolf şirkətinin şam yeməyinə baş çəkib. Bu isə koronavirus ilə əlaqədar İrlandiya hökuməti tərəfindən tətbiq olunan qaydaların kobud pozulmasıdır.

Şam yeməyində iştirak edən ölkənin Kənd Təsərrüfatı naziri Dara Kalliri də istefa verib.

Fil Hoqan əvvəlcə ictimai üzr istəməsi ilə kifayətlənməyi düşünürdü, lakin sonradan istefa qərarını verdi. Bu barədə Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen bildirib.

## ABŞ Prezidenti Ankara ilə Afina arasında dialoqun tərəfdarıdır



ABŞ Prezidenti Donald Tramp türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla telefon danışığında Vaşinqtonun Şərqi Aralıq dənizi regionunda NATO üzrə müttəfiqləri - Yunanıstan və Türkiyə arasında gərginliyin artmasından narahat olduğunu bildirib. Bu barədə Ağ evin mətbuat katibinin köməkçisi Cadd Dir məlumat verib.

"Dialoq Türkiyə ilə Yunanıstan arasındakı fikir ayrılıqlarının aradan qaldırılmasının yeganə vasitəsidir", - deyə Amerika lideri bildirib.

ABŞ və Türkiyə liderləri həmçinin ikitərəfli münasibətlərin aktual mövzularını və regional gündəliyi müzakirə ediblər.

## Koronavirus pandemiyası səbəbi ilə Davosda keçirilən Dünya İqtisadi Forumunun vaxtı dəyişdirilib



Bu barədə forumun internet səhifəsində məlumat verilib. Qeyd edilib ki, illik toplantının hər il olduğu kimi, gələn ilin yanvar ayında deyil, yay aylarında baş tutması barədə qərar verilib. Dünyanın siyasi liderlərini, aparıcı şirkətlərin rəhbərlərini, ekspert və media mənsublarını bir araya gətirən nüfuzlu beynəlxalq forumun keçirilməsi təhlükəsizlik nöqteyi-nəzərindən məqsədəuyğun hesab edilməyib.

Forumun rəhbərliyi açıqlamasında qeyd edib ki, COVID-19 böhranından sonra dünya iqtisadiyyatının dirçəlməsi və "Böyük yenidən başlanğıc"ın formalaşdırılması üçün birgə müzakirələrin aparılmasına ehtiyac var. Buna görə də 2021-ci il yanvarın 25-dən etibarən qlobal aparıcı qüvvələrin dünyadakı vəziyyətə dair fikirlərini bölüşmələri üçün "Davos dialoqları" adı altında onlayn forum təşkil ediləcək.

İllik forumun dəqiq vaxtı və məkanı ilə bağlı detallar pandemiyanın gedişatı ilə əlaqədar vəziyyətə aydınlıq gəldikdən və iştirakçıların sağlamlığı və təhlükəsizliyinə təminat olduqdan sonra elan ediləcək.

# Ermənistan sosial-iqtisadi səfalət içərisindədir

## Paşinyan hakimiyyətinin talançı hərəkəti işğalçı ölkəni daha böyük problemlərə sürükləyir

***Əvvəli 1-ci səh.***

Diasporda belə bir fikir var ki, Nikol Paşinyan hakimiyyətdə olduğu müddət ərzində Ermənistanı ziyarət etmək belə olmaz. Əksinə, birləşib, ölkəni xilas etmək lazımdır. Ermənistana investisiya yatıran bir normal erməni diasporu yoxdur. Əgər belə təşkilatlar varsa, deməк, onlar ölkəni talamağa gəliblər. Belə ermənilər xüsusilə Avropadakı diasporda mövcuddur. Lakin bunlar da investor yox, öz klanlarına bağlı olan oğrulardır. Onlar da Nikol Paşinyan kimi şoumendirlər. Baş nazir xalq qarşısında üzr istəməlidir".

Diaspor tərəfindən Ermənistana göndərilən pulların azalması pandemiyanın böyük problemlər yaratdığı ölkədə sosial-iqtisadi müstəvidə vəziyyəti daha da gərginləşdirib. Belə bir vaxtda "İravnuk" qəzeti vəziyyətin pisləşdiyini açıqlayıb. Bildirilir ki, fiziki şəxslərin də göndərdiyi pulların həcmində kəskin azalmalar qeydə alınıb. 2013-cü ildən 2020-ci ilə qədər ermənilər öz ölkələrinə bank sistemi vasitəsilə 9 milyard dollardan çox pul göndəriblər: "Yerevana ən çox valyuta axını ənənəvi olaraq Rusiyadan gəlib. Bu ölkədən pulları daha çox əmək miqrantları göndərirlər. Müstəqillik qazandıqdan sonra belə vətəndaşlarımız üçün Rusiya vacib ölkə olaraq qalmaqdadır. Son 7 il ərzində bu ölkədən Ermənistana 6 milyard dollardan çox pul göndərilib". Amma o da qeyd olunur ki, ötən ildən ölkəyə göndərilən pulların həcmində kəskin azalmalar qeydə alınıb və bu, eyni zamanda koronavirus pandemiyası fonunda əhalinin maddi rifah halında özünü dərhal büruzə verir.

Ermənistanda bütün bunlarla yanaşı, əsgərələrə göstərilən laqeydlik də cəmiyyətdə narazılığı artırır. Eyni zamanda erməni ordusunun tənəzzülünü göstərən hadisələrin sayı kifayət qədər çoxdur. Yerli medianın yazdığına görə, son günlərdə hərbi hissələrdən birində böyük oğurluğun üstü açılıb. İstintaq komitəsinin araşdırmaları nəticəsində məlum olub ki, müəyyən müddət ərzində hərbi hissəyə göndərilən əşyalar və tikinti materialları oğurlanıb. Oğurluğu həyata keçirməkdə ittiham olunan hərbi hissənin anbar rəisi məhkəmənin qərarı ilə nəzarətə götürülüb.

Bir müddət əvvəl Ermənistanın hərbi hissələrinin birində aşpazların əsgər yeməklərini oğurladıqları da məlum olub. Belə ki, həmin hərbi hissədə Mqer Zaroyan və Ovsanna Adamyan adlı aşpazlar müxtəlif vaxtlarda əsgərlərin yeməklərini hərbi hissədən çıxarıblar. Bir il öncə isə hərbi hissələrdəki əsgərlərə məxsus yeməklərin Polşa şirkətlərindən birinə satılması barədə məlumat yayılmışdı.

"Çorrord İşxanutyun" qəzeti yazır ki, orduda qanun pozuntuları baş alıb gedir: "Ölkəmizin hərbi-siyasi rəhbərliyi nə edəcəyini bilmir. Vahid mövqe, bitkin siyasi xətt yoxdur. Ermənistanın baş naziri Nikol Paşinyan indi ordu ilə bağlı nöqsanlarını və uğursuz qərarlarını pərdələməyə, zahirən nikbin açıqlamalarla ört-basdır etməyə çalışır. Bunun nəticəsidir ki, ötən ay cəbhədəki hərbi əməliyyatlar ölkəmizin və xüsusilə də ordumuzun mövqelərinin zəifliyini göstərdi. Bununla bağlı suallar çoxdur, amma Paşinyan hakimiyyəti bu sualların, hələ ki heç birinə cavab verməyib".

Bütün baş verənlər Ermənistana yeni çətin günlər vəd edir. Hesab edilir ki, indiki hakimiyyətin səriştəsiz siyasəti üzündən Ermənistan daha yeni böyük problemlərlə üzləşəcək.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Ermənistan ordusu əsgərinin müalicəyə göndərilməsi üçün onun ailəsindən rüşvət tələb olunur

Azərbaycanın işğal edilmiş yaşayış məntəqələrinin birində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən əsgər oynaqlarında problem olmasına və çətinliklə yeriməsinə baxmayaraq, müalicəyə göndərilmir.



AZƏRTAC erməni KİV-inə istinadla xəbər verir ki, hərbi qulluqçu Hrant Minasyanın oynaqlarında kəskin ağrılar olduğundan yeriməkdə çətinlik çəkir. Hərbi hissənin həkimi bildirib ki, oynaqlarındakı patologiya səbəbindən H.Minasyan hərəkət etdikcə onun "sümükləri yeyilir". Bu da onun ayaqlarında funksional pozuntuya səbəb olur.

Ermənistan ordusunun hərbi qulluqçusu təcili əməliyyat edilməli olsa da, hərbi hissə komandanlığı onun müalicəyə göndərilməsini gecikdirir.

Mənbənin iddiasına görə, H.Minasyanın valideynlərindən rüşvət tələb olunub. Onların isə həmin məbləği ödəməyə gücləri çatmadığından əsgərin hospitala göndərilməsi bilərəkdən gecikdirilir.

# Yeddi ayda ölkədən avtomobil nəqliyyatı ilə 787,2 min ton yük aparılıb

Cari ilin yanvar-iyul aylarında Azərbaycandan avtomobil nəqliyyatı ilə 787,2 min ton yük ixrac olunub.

Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, bu nəqliyyat növü ilə ölkəyə idxal olunan yüklərin həcmi isə 1 milyon 331,8 min ton təşkil edib.

# Naxçıvanda həyata keçirilən "Könüllü jurnalist" layihəsinin ilk könüllülər qrupunun üzvləri seçilib

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi və Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi tərəfindən həyata keçirilən "Könüllü jurnalist" layihəsinin ilk könüllülər qrupuna bilik və bacarıqları nəzərə alınaraq 10 gənc seçilib.




AZƏRTAC xəbər verir ki, seçilmiş könüllü jurnalistlər 6 ay ərzində onlar üçün təşkil olunacaq təlim, seminar və digər tədbirlərdə iştirak edəcək, jurnalistika peşəsini hərtərəfli öyrənəcəklər.

Uzun müddət davam edəcək layihə çərçivəsində altı aydan bir yeni könüllülər qrupu yaradılacaq.

Qeyd edək ki, "Könüllü jurnalist" layihəsi Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq muxtar respublikada könüllülük fəaliyyətinin daha da genişləndirilməsi, jurnalistika sahəsində könüllülük fəaliyyətinin təmin olunması məqsədilə keçirilir.

## “Bakı Metropoliteni” QSC-nin III yeni (Bənövşəyi) xəttinə aid “Xocasən” elektrik deposunun “Blok post” binasında, 1 və 2 saylı Nəzarət Buraxılış məntəqələrində qapı və pəncərə sistemlərinin hazırlanıb quraşdırılması işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

LOT-1. “Bakı Metropoliteni”nin III yeni (Bənövşəyi) xəttinə aid “Xocasən” elektrik deposunun “Blok post” binasında, 1 və 2 saylı Nəzarət Buraxılış məntəqələrində qapı və pəncərə sistemlərinin hazırlanıb quraşdırılması işlərinin satın alınması

**İştirak haqqı - 250 manat**
**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18 sentyabr 2020-ci il saat 14:30-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **28 sentyabr 2020-ci il saat 14:30-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **29 sentyabr 2020-ci il saat 14:30-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən satınalma fəaliyyətinin (büdcə təşkilatları üçün) avtomatlaşdırılması məqsədilə proqram təminatının hazırlanması işlərinin satın alınması üçün keçirilən açıq tenderdə “BİNS OFT LTD” şirkəti qalib olmuşdur. Qalib şirkətlə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

“Azərbaycan” qəzetinin 01 iyul 2020-ci il tarixli nömrəsində “Azərsu” ASC-nin daxili vəsaiti hesabına nəqliyyat vasitələri üçün yağların və sürtkü materiallarının satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 3 sentyabr 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 4 sentyabr 2020-ci il saat 18:00-a dəyişdirilmişdir. Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarəolunması departamentinin Satınalmaların təşkili şöbəsinin mühəndisi Ağaəli Mirzəyev (agali.mirzeyev@azersu.az +99412 431 47 67 (2246).

***Tender komissiyası***

## BİLDİRİŞ

“Azərbaycan” qəzetinin 01 iyul 2020-ci il tarixli nömrəsində “Azərsu” ASC-nin daxili vəsaiti hesabına nəqliyyat vasitələri üçün turbokompressorların təmiri işinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 3 sentyabr 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 4 sentyabr 2020-ci il saat 18:00-a dəyişdirilmişdir. Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarəolunması departamentinin Satınalmaların təşkili şöbəsinin mühəndisi Ağaəli Mirzəyev (agali.mirzeyev@azersu.az +99412 431 47 67 (2246).

***Tender komissiyası***

## BİLDİRİŞ

Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi tərəfindən beynəlxalq və ölkə səviyyəli tədbirlərdə, bayramlarda, mükafatlandırma, eləcə də yubiley mərasimlərində təbrik və xatirə məqsədi ilə verilməsi nəzərdə tutulan hədiyyələrin satın alınması məqsədi ilə 14 avqust 2020-ci il tarixdə elan etdiyi kotirovka sorğusunda iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsini həyata keçirmiş və müsabiqənin qalibi “LOTUS CO” QSC müəyyən edilmişdir. Qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Bərdə rayon sakininin iş yerində elektrik cərəyanı vurması nəticəsində ölməsi ilə bağlı cinayət işi başlanıb

Avqustun 26-da saat 15 radələrində Bərdə rayonunun Mustafaağalı kəndi ərazisində yerləşən avtomobilyuma məntəqəsində işləyən Niyaməddin Həsənovun ölməsi barədə rayon prokurorluğuna məlumat verilib.

Bərdə Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, dərhal prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

İlkin araşdırmalarla müəyyən olunub ki, 1999-cu il təvəllüdlü Niyaməddin Həsənov işlədiyi avtomobilyuma məntəqəsində iş görən zaman elektrik cərəyanının vurması nəticəsində yıxılıb və baş nahiyəsindən aldığı xəsarətdən hadisə yerində ölüb.

Faktla bağlı Bərdə Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri həyata keçirilir.

# Göyçayda bələdiyyə sədrinin qanunsuz ağac kəsilməsinə göstəriş verməsi ilə bağlı cinayət işi başlanıb

Ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpası və təbii ehtiyatlardan səmərəli istifadə olunması istiqamətində mühüm işlər görülür. Lakin bəzi hallarda ayrı-ayrı şəxslər tərəfindən ətraf mühitin mühafizəsi qaydalarının pozulması halları müşahidə olunur və prokurorluq orqanları tərəfindən belə hallara qarşı ən ciddi mübarizə tədbirləri davam etdirilir.

Göyçay Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, Göyçay şəhəri M.Ə.Rəsulzadə küçəsində Eldar şamı cinsindən bir ağacın kökündə kəsilərək məhv edilməsi ilə bağlı 8 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsindən daxil olmuş material üzrə rayon prokurorluğunda araşdırma aparılıb.

Aparılmış araşdırmalarla cari ilin fevralında Göyçay Şəhər Bələdiyyəsinin sədri Cavid Rəhimovun göstərişi ilə həmin ağacın məhv edilməsi və nəticədə təbiətə 18 min manat məbləğində ziyanın dəyməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Faktla bağlı Göyçay Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 259.2.4-cü (qanunsuz ağac kəsmə, külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları, ətraf mühitə vurulmuş ziyanın ödənilməsi və nəticələrinin aradan qaldırılması istiqamətində zəruri tədbirlər davam etdirilir.


## OXUCULARIN NƏZƏRİNƏ!

## “AZƏRBAYCAN”

*qəzetinə abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*“Azərmətbuatyayımı” ASC* (012) 440-46-94, (070) 244-17-34
*“Azərpoçt” ASC* (012) 598-49-55, (051) 225-02-13
*“Qaya” firması* (012) 564-63-45, (050) 214-04-05
*“Kaspi” MMC* (012) 432-39-55, (012) 510-82-24
*“Region Press” MMC* (055) 316-79-01, (050) 316-79-01
*“Səma-M” MMC* (012) 594-09-59
*“Ziya” LTD* (012) 497-76-96, (050) 306-77-22
*“Pressinform” MMC* (012) 598-49-52, (070) 340-01-00
*“City press” MMC* (055) 819-09-26

*4 aylıq*
**41,60 (qırx bir manat altmış qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*1 aylıq*
**10,40 (on manat qırx qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu

### *açıq tenderə dəvət edir*

- Dövlət Sosial Müdafiə Fondunun inzibati binasının birinci mərtəbəsində yerləşən holun interyer dizayn layihə işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 50 (əlli) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu: - 4**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (notarial qaydada təsdiq olunmuş) və bank rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (27.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışları qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (27.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);*
- *bənzər işlərdə təcrübəsi barədə müqavilələr və görülmüş işlər barədə təsdiqedici sənədlər təqdim olunmalıdır;*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **17.09.2020-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **25.09.2020-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **28.09.2020-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

### *açıq tenderə dəvət edir*

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatın inzibati binasında istifadədə olan odsöndürən balonların təkrar doldurulması işlərinin satın alınması üzrə açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: Tələb olunmur**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *qiymət təklifinin təminatı (təminatın qüvvədə olma müddəti qiymət təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *müvafiq sahədə fəaliyyətinə dair icazə və lisenziya;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **17.09.2020-ci il saat 11:00-a** qədər və tender təklifini **25.09.2020-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **28.09.2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində “Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi” Publik Hüquqi Şəxsi 07 iyul 2020-ci il tarixdə maşın və avadanlıqların satın alınması üçün elan etdiyi açıq tender üzrə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsinə əsasən (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin 2020-ci il 26 avqust tarixli AİBNDX-15/01-5/612s nömrəli təsdiq məktubu) bütün tender təklifləri rədd edilir.

***Tender komissiyası***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7295
Sifariş 1982
Qiyməti 40 qəpik